Xalqın qəzeti!

# Xalq qəzeti

№ 141 (30257) 9 iyul 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün xəbəri

Moldovanın paytaxtı Kişineuda keçirilən 15 və 17 yaşlı yeniyetmə oğlan və qızlar arasında Avropa birinciliyində komandamız böyük uğurla çıxış edərək 14 medal qazanıb.

# Albaniya Avropada mötəbər tərəfdaşımızdır



**Azərbaycan–Albaniya ikitərəfli münasibətlərinin uğurla inkişafında enerji sahəsində əməkdaşlıq əsas istiqamətlərdən biridir. Bu dost və tərəfdaş ölkələrin prezidentlərinin iyulun 7-də Bakıda keçirilən geniş tərkibdə görüşündə dövlətimizin başçısı hər iki dövlət arasında sıx dostluq əlaqələrinin qurulduğunu, siyasi dialoqun yüksək səviyyədə davam etdirildiyini dəyərləndirərək, bunun mövcud münasibətlərin möhkəmləndirilməsi baxımından mühüm amil olduğunu, enerji və iqtisadi inkişaf sahələrində praktiki fəaliyyətdə özünü qabarıq göstərdiyini bildirib.**

Prezident İlham Əliyev daha sonra deyib: "Hazırda Azərbaycanla Albaniya əməkdaşlığının perspektivləri çox parlaqdır. Çünki burada bizim dostluğumuz, qarşılıqlı maraq və gələcəklə, eləcə də ikitərəfli münasibətlərin irəli aparılması və əməkdaşlığın gücləndirilməsi ilə bağlı aydın baxış kimi möhkəm təməl var. Əlbəttə, əməkdaşlığın əsasını təşkil edən mühüm amil enerji sahəsinin inkişafı məsələləridir və biz artıq Sizinlə bu məsələyə toxunduq... Bizim bu istiqamətdə daha çox planlarımız var və bu məsələlər mənim Albaniyaya səfərim çərçivəsində, həm də digər rəsmi şəxslər səviyyəsində müzakirə edilib".

*(ardı 4-cü səhifədə)*

# Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Azərbaycan Prezidentinə təşəkkür edib



Non-Aligned Movement supports the IOC and the unifying mission of the Olympic Games

07 Jul 2023 IOC News Press Release

The International Olympic Committee (IOC) has welcomed a Declaration by the Non-Aligned Movement, chaired by Azerbaijan, which unites 120 of the 193 UN Member States. The Declaration, which was passed unanimously, emphasises that "the participation of athletes from all 206 National Olympic Committees in Paris 2024 Olympic and Paralympic Games would be a strong symbol of unity of humanity." In this respect it expresses its "support to the efforts and initiatives undertaken by the International Olympic Committee to this end".

© Ministry of Foreign Affairs, Republic of Azerbaijan

This position is fully aligned with the IOC recommendations for International Federations and international sports event organisers on the participation of athletes with a Russian or Belarusian passport in international competitions, including qualifiers for the Olympic Games.

IOC President Thomas Bach thanked the Non-Aligned Movement

**Beynəlxalq Olimpiya Komitəsi Azərbaycanın sədrlik etdiyi və BMT-nin 193 üzv dövlətindən 120-ni birləşdirən Qoşulmama Hərəkatının Bakıda qəbul olunan Bəyannaməsini alqışlayıb. BOK-un prezidenti Tomas Bax Bəyannamənin qəbulunda göstərdiyi təşəbbüsə görə Prezident İlham Əliyevə təşəkkür edib, həmçinin Qoşulmama Hərəkatına minnətdarlıq edib.**

"BOK Qoşulmama Hərəkatına üzv olan 120 dövlətin dəstəyini ürəkdən alqışlayır. Olimpiya Oyunlarının birləşdirici missiyasına bu güclü bağlılıq bizi çox ruhlandırır. Bu mühüm qətnamənin qəbulunda göstərdiyi təşəbbüsə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm", – deyə T.Bax vurğulayıb.

Yekdilliklə qəbul edilən Bəyannamədə vurğulanır ki, "Paris-2024" Olimpiya və Paralimpiya Oyunlarında bütün 206 Milli Olimpiya Komitəsinin idmançılarının iştirakı bəşəriyyətin birliyinin güclü rəmzi olacaq.

*"Xalq qəzeti"*

# Brüssel raundu öncəsi: Paşinyanın zəngi, Arayikin məktubu və İrəvanın Rusiyanı qıcıqlandırmaq cəhdi



Səhifə ⇨ 3

# Haqq və ədalət Azərbaycanın tərəfindədir



Səhifə ⇨ 6

## Azərbaycançılıq və Cənubi Azərbaycan tarixi



Səhifə ⇨ 9

## Özünə umac ova bilməyən Qafqazda əriştə kəsmək istəyir…



Səhifə ⇨ 6

# "Taxıl dəhlizi" açıq qalacaqmı?



Səhifə ⇨ 10

# Separatçıların qarşıdurmasının yeni dalğası başlayıb



Səhifə ⇨ 3

# Qara torpağın üzağardan vədəsidir



Səhifə ⇨ 7

# Beynəlxalq qurumlar təsdiqləyir: Azərbaycan iqtisadi azadlığı olan ölkədir



Səhifə ⇨ 7

# Ukraynaya Qərbin yardımı davam edir

Səhifə ⇨ 10

# Caz festivalı sona çatdı



Səhifə ⇨ 11

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının aşağıdakı əməkdaşlarına diplomatik rütbələr verilsin:

### fövqəladə və səlahiyyətli səfir

Bayramov Ceyhun Əziz oğlu
Məmmədov Elnur İsrafil oğlu
Rzayev Fariz Fikrət oğlu

### birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi

Musayev Tofiq Fuad oğlu

### ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi

Səfərov Emil Firdovsi oğlu
Şərifov Samir Ənvər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2023-cü il**

# “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramının təsis edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarının Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsili üçün Azərbaycan Respublikası Prezidentinin təsis etdiyi qrant proqramları Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın möhkəmlənməsinə, dost və tərəfdaş ölkələrdə insan resurslarının inkişafına nəzərəçarpan töhfələr vermişdir.

Həmin təhsil qrantı proqramlarının uğurlu təcrübəsi əsasında xarici ölkə vətəndaşlarına təhsil qrantının verilməsi istiqamətində növbəti mərhələyə keçid beynəlxalq sülh və əməkdaşlığın möhkəmləndirilməsi ilə yanaşı, Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artmasına, beynəlmiləlləşməsinə və ali təhsil müəssisələrində təhsil alan əcnəbilərin coğrafi müxtəlifliyinin genişlənməsinə də müsbət təsir edəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müasir Azərbaycan dövlətinin qurucusu, dahi siyasi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikasının layiqli mövqe qazanmasında müstəsna rolunu nəzərə alaraq, ali təhsil müəssisələrində əcnəbilərin təhsilinə dəstək vermək məqsədilə **qərara alıram:**

**1.** Aşağıdakı ölkələrin vətəndaşlarının Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin tədris dilinə uyğun hazırlıq kurslarında, bakalavriat (əsas (baza ali) tibb təhsili), magistratura (rezidentura), doktorantura səviyyələrində təhsili üçün “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı təsis edilsin:

1.1. İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr;

1.2. Qoşulmama Hərəkatına üzv ölkələr;

1.3. İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələr;

1.4. xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələr.

**2.** Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilmiş təhsil qrantı:

2.1.2024—2025-ci tədris ilindən başlayaraq hər il 100 təhsil qrantı olmaqla 5 (beş) il müddətində verilir;

2.2. Azərbaycan Respublikasının hesabına ödənilən təhsil haqqı, viza, qeydiyyat, yataqxana və ya mənzil kirayəsi, gündəlik qidalanma, tədris ədəbiyyatı ilə təminat, nəqliyyatdan (taksi xidmətindən başqa) istifadə, kommunal xidmətlər, tibbi yardım və təhsil qrantı alacaq şəxslərin ildə bir dəfə ölkələrinə gediş-gəliş xərclərini əhatə edir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı”nın verilməsi qaydasını və həmin təhsil qrantının məbləğini iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə, hər il may ayının 1-dən gec olmayaraq, bu Sərəncamın 1.1-1.4-cü bəndləri üzrə təhsil qrantının verilməsi üçün kvotaları (o cümlədən ölkələr üzrə kvotaları), namizədlərin seçim meyarlarını və bunların əsasında təhsil qrantı alacaq şəxslərin siyahısını müəyyənləşdirsinlər.

**5.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Sərəncamın 4-cü hissəsinə uyğun olaraq müəyyənləşdirilmiş siyahı üzrə əcnəbilərin təhsil alacaqları Azərbaycan Respublikasının ali təhsil müəssisələrini müəyyən etsin və 2024-2025-ci tədris ilindən başlayaraq həmin ali təhsil müəssisələrinə Azərbaycan Respublikasının dövlət büdcəsindən bu Sərəncamın 2.2-ci bəndində nəzərdə tutulan xərclərin ödənilməsini təmin etsin.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.2-ci bəndində nəzərdə tutulan xərclərin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin müvafiq illər üzrə dövlət büdcəsi layihəsində nəzərdə tutulması ilə bağlı zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2023-cü il**

# “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il mayın 22-də Vilnüs şəhərində imzalanmış “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Litva Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2023-cü il**

# “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş”in təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il mayın 22-də Vilnüs şəhərində imzalanmış “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Litva Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2023-cü il**

# “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında energetika sahəsində Əməkdaşlıq Sazişi”nin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il mayın 24-də Ər-Riyad şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında energetika sahəsində Əməkdaşlıq Sazişi” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Səudiyyə Ərəbistanı Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2023-cü il**

*Parlament xəbərləri*

# Milli Məclisdəki çıxışlardan seçmələr




### Qarabağdakı qondarma qurumun missiyaları bitib

Milli Məclisin deputatı Vahid Əhmədov parlamentin iclasında Qarabağ mövzusundan danışarkən deyib: “Bizim üçün ən çətin məsələlərdən biri sərhəddə nəzarət – buraxılış məntəqəsini qoymaq idi. Bunu da həll etdik. İndi ermənilər oradan keçmək məcburiyyətindədir və sakitcə gedib-gəlirlər. Bu, Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasətin nəticəsidir. Sərhəddən sonra inteqrasiyanın Qarabağın dağlıq hissəsinə də sirayət etməsinə gəldikdə isə, fikrimcə, artıq bu məqam da yetişib. Artıq Xankəndi və ətraf ərazilərdə Azərbaycanın dövlət qurumlarının fəaliyyət göstərməsi vacibdir. Doğrudur, hazırda Qarabağa xüsusi nümayəndə təyin olunub və o, fəaliyyət göstərir, lakin bölgədə qondarma qurumun da mövcudluğu var. Mənə elə gəlir ki, onlar da başa düşürlər ki, artıq missiyaları bitib”.

### Universitetlərimizin adı niyə yaxşılar sırasında yoxdur?

**Fazil Mustafa:** Böyük Britaniyanın “World University Ranking” nəşri 2023-cü ildə dünyanın ən yaxşı universitetlərinin reytinqini dərc edib. Reytinqə Qazaxıstanın 9 şəhərindən 21 universitet daxil olub. Amma 30 ildir müstəqil olan Azərbaycanın bir universitetinin belə bu siyahıda adı niyə yoxdur? Çünki universitetlərimizdə təhsil günün tələbləri səviyyəsində deyil.

### Cərimələr niyə bu qədər artırılır?

Deputat Fazil Mustafa İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərə – yol hərəkəti ilə bağlı cərimələrin artırılmasına etirazını bildirib: “Cərimələrin artırılması, əslində, vətəndaş üçün yükdür. Bu səviyyədə cərimə artırılmaz. Bu, doğru yanaşma deyil. Ona görə ki, cəriməni həddən artıq sərtləşdirəndə bu pul vətəndaşın cibindən çıxır. Vətəndaş yoxsullaşanda isə dövlət yoxsullaşır. Mən bu prinsipin əleyhinəyəm. Hesab edirəm ki, bacardıqca vətəndaşın yükünü azaltmaq lazımdır. Yoxsa ki, hər şeyə rüsum, hər şeyə cərimə, ödəniş - bu, artıq normal yaşam imkanlarından kənara çıxır”.

Məlumat üçün qeyd edək ki, avtomobil yollarının saxlanılması və qorunması qaydalarının (38.1) pozulmasına görə cərimələr yeni layihəyə əsasən, 5 dəfədən çox artırılıb.

### Keyfiyyətsiz dərmanlar bazara necə daxil olur?

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov keyfiyyətsiz dərmanların ölkəyə hansı yollarla daxil olması ilə bağlı məsələ qaldırıb: “Dərmanların keyfiyyətinin aşağı olmasının səbəbləri araşdırılmalıdır. Keyfiyyətsiz dərmanları gətirənlər üzə çıxarılmalıdır. Bunlar şəxsi istifadə üçün gətirən vətəndaşlar deyil. Bu dərmanlar başqa yollarla gəlir. Bu kimi vasitələrdən, eyni zamanda, şəxsi maraqlar üçün də istifadə olunur. Keyfiyyətsiz dərman vasitələrinin bazara necə daxil olması məsələsinə aydınlıq gətirilməlidir”.

### Makron faşizmi dəstəkləyir

“Fransada ötən ayın sonunda 17 yaşlı əlcəzairli gəncin öldürülməsi ilə başlayan etiraz dalğası ölkədə böyük qarşıdurmaya səbəb olub. Bu hadisə Fransada fərqli millətlərə qarşı etnik nifrət, dözümsüzlük və zorakılıq hallarının pik həddə çatdığını göstərdi”. Bu fikirləri deputat Vahid Əhmədov səsləndirib. O deyib ki, Afrika ölkələrində törətdiyi qətliamlara baxmayaraq, özünü demokratiya və insan haqlarının himayədarı kimi təqdim edən dövlətin öz xalqı ilə bu cür rəftarı prezident Emmanuel Makron hökumətinin əsl simasını göstərdi: “İşğalçı dövlətlə həmrəylik nümayiş etdirən Makron bu gün də erməni faşizminin əsas himayədarlarından biridir. Son illər Fransada etnik-milli zəmində baş verən cinayətlərin və zorakılıqların artması isə onun irqçi siyasətinin ölkədaxili nizamı alt-üst etməsindən xəbər verir”.

### Hərbi doktrinaya dəyişiklik təklif edildi

“Azərbaycan torpaqlarını işğaldan azad edib və “Azərbaycan Respublikasının Hərbi doktrinası”nda dəyişikliklərin vaxtıdır”. Bu təklifi deputat Elşad Mirbəşir səsləndirib: ”Bəzi ölkələrin hərbi doktrinaları hər il, iki ildən bir dəyişir. Azərbaycanın da müasir dünyada yeni reallıqlara uyğun hərbi doktrinasına dəyişikliklər edilməsi vacibdir. Artıq Azərbaycana qarşı olan təhlükələrin xarakteri də dəyişib. Ona görə dəyişikliyə zərurət yaranıb. Bizim üçün təhlükəli sayılan ölkələrin adı Hərbi doktrinada yer almalıdır. Bunlardan biri Fransa olmalıdır”.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

# Albaniya Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb

**Albaniya Respublikasının Prezidenti Bayram Beqayın Azərbaycan Respublikasına rəsmi səfəri iyulun 8-də başa çatıb.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Albaniya Prezidenti Bayram Beqayı və xanımı Armanda Beqayı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# MSK-nın nümayəndə heyəti Özbəkistanda prezident seçkilərini müşahidə edir

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin dəvətinə əsasən Daşkənddə səfərdədir.**

Məqsəd bu gün keçirilən növbədənkənar prezident seçkilərini beynəlxalq müşahidəçi qismində izləməkdir.

Səfər çərçivəsində Azərbaycan Mərkəzi Seçki Komissiyası sədrinin Özbəkistanda seçkilərin müşahidəsində iştirak edən təşkilatların və xarici ölkələrin seçki idarəetmə orqanlarının rəhbərləri ilə görüşləri də nəzərdə tutulur.

MSK-nın nümayəndələri, həmçinin Türk Dövlətləri Təşkilatı və Müstəqil Dövlətlər Birliyinin seçki müşahidə missiyalarında da təmsil olunurlar.

Xatırladaq ki, bu il aprelin 30-da Özbəkistanda konstitusiyaya düzəlişlər üzrə referendum keçirilib və prezidentin səlahiyyət müddəti beş ildən yeddi ilə qaldırılıb. Özbəkistan qanunlarına əsasən, özbək dilini bilən, son on ili ölkədə yaşayan və namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülən 35 yaşdan yuxarı bütün vətəndaşlar seçkilərdə iştirak edə bilər.

Seçkilərdə hazırkı Prezident Şavkat Mirziyoyev, Xalq Demokratik partiyasının namizədi Uluğbek İnoyatov, Ekologiya partiyasının namizədi Abduşukur Hamzayev və Ədalət Sosial Demokratiya partiyasının namizədi Roba Mahmudova mübarizə aparırlar.

***Qəzənfər QASIMOV,***
***“Xalq qəzeti”***

# Brüssel raundu öncəsi: Paşinyanın zəngi, Arayikin məktubu və İrəvanın Rusiyanı qıcıqlandırmaq cəhdi

## Ermənistan Azərbaycanla sülh gündəliyini pozmağa çalışır

**Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında iyulun 21-də keçirilməsi nəzərdə tutulan Brüssel görüşündən əvvəl Ermənistan danışıqların mövzusunu özünəməxsus şəkildə hazırlamağa cəhd göstərir. Buna İrəvanın, faktiki olaraq, sülh prosesini ləngitmək üçün çıxardığı oyun da demək mümkündür.**



Baş nazir Nikol Paşinyan administrasiyasının istədiyi təxminən budur: Azərbaycanla Ermənistan arasındakı vəziyyət baxımından yeni detallar meydana çıxsın və həmin detallar danışıqların gündəliyinə daxil olsun ki, prosesin başlıca hədəfi sayılan sülh müqaviləsinin ərsəyə gəlməsi uzansın. Əslində, Nikol iyulun 5-də ölkə hökumətinin iclasında çıxış edərkən, bunun anonsunu vermişdi. Bildirmişdi ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni hələ imzalanmağa hazır deyil: "Ümid edirəm ki, qarşıdan gələn görüş zamanı Vaşinqtonda qeydə alınan müsbət məqamlar məzmunlu olacaq".

Ermənistan baş naziri sülh prosesini pozmaq, sülh gündəliyinə alternativlər çıxarmaq üçün Qarabağdakı separatçı rejimin rəhbəri Arayik Arutyunyanı da ortaya salıb. Arayik Qarabağ ermənilər müstəvisində sentimentallıq yaratmaqla, belə demək mümkünsə, "sari simlərə" toxunmaqla məşğuldur. Onun Rusiya Prezidenti Vladimir Putinə ünvanladığı məktub məhz bundan xəbər verir.

Ancaq məlumdur ki, bu məktub Paşinyanın məhsuludur, özünün V.Putinə telefon zənginin, guya, Arutyunyanın xahişi ilə gerçəkləşməsinin tirajlanması da, həmçinin. Nikol pozuculuq cəhdlərini, öz aləmində pərdələmək yolu tutur. Həm də Rusiyanı qıcıqlandırmaq istəyir. Nikol Moskva ilə təmasları gücləndirərək, elə fon yaradır ki, iyulun 21-də Brüsseldə Qarabağın taleyi həll oluna bilər. İstəyir ki, buna Kremlin adekvat tədbirləri meydana çıxsın.

Ümumiyyətlə, Paşinyan yaxşı anlayır ki, Qərb vasitəçilik xətti sülhü hədəf seçib. Buna razı olmur və məramını açıq şəkildə bildirməyə cəsarət göstərmədiyindən, bir növ, təbii reallıqlar qondarmağa çalışır. Bu baxımdan isə Rusiya çox yaxşı vasitədir. Onsuz da Moskvanın reputasiyası pisdir, Paşinyan öz məqsədləri üçün həmin pis reputasiyadan irəli gələn hərəkətlərin dövriyyəyə girməsinə çalışır ki, Cənubi Qafqazda sülhün əldə olunmamasına görə günah Kremlin üzərində qalsın.

Təsəvvür edin ki, Ermənistan sosial şəbəkə seqmentində Laçın yolu üzərindəki Həkəri körpüsündə Azərbaycanın bayraq dirəyinin Rusiya sülhməramlıları tərəfindən endirildiyinə dair səhnə yayımlanır. Məlumdur ki, bu söhbət çoxdanındır. O zaman sual olunur: nə üçün video-görüntülər məhz indi yayılır? Cavab sadədir. İrəvan istəyir ki, Azərbaycan Rusiya əleyhinə ritorikanı gücləndirsin və nəticə etibarilə, bu, Kremlin ölkəmizə qarşı əks gedişlərini şərtləndirsin. Bu mənzərəyə Arayikin müraciətinin timsalında Qarabağ ermənilərinin Rusiya ilə "mənəvi bağı"nın vurğulanmasını hədəf seçmiş sentimentallığın əlavə olunması isə duruma dramatiklik gətirmək nöqteyi-nəzərdən vacibdir.

Ona da diqqət yetirək ki, A.Arutyunyanın V.Putinə məktubunun məzmunu açıqlanmır. Erməni mediası yalnız bunu bildirməklə kifayətlənir: "məktub düzgün, lakin kifayət qədər sərt ifadələrlə yazılıb". Arayikin naməsinin, hətta ultimativ tonda qələmə alındığını bildirənlər də var. Onlar iddia edirlər ki, Arutyunyan Rusiya liderini rusların Qarabağda konkret olaraq nə edəcəyinə tez bir zamanda cavab verməyə çağırır. Ortada belə bir ifadə var: əgər "vəziyyətə nəzarət etmək və yolu açmaq niyyətində deyillərsə", o zaman bundan sonra nə olacaq?

Bəli, bildirilir ki, Arayik separatçıların Rusiyadan konkret direktiv gözlədiklərini yazıb. Burada çox incə məqam var. Məlumdur ki, Qarabağ mövzusunda direniş göstərən Paşinyandır. Amma vəziyyəti separatçı rejimin öz iradəsi qismində təqdim edir. Yəni, təxminən belə: Qarabağ Rusiyalıqdır, mənlik deyil.

Bu gediş 21 iyul Brüssel təması öncəsi edilir ki, görüşdə Qarabağ məsələsi, ümumiyyətlə, gündəmə gəlməsin. Nəzərə alsaq ki, Paşinyan hökumətin iclasında Qarabağda erməni silahlı birləşmələrinin olmadığını qırmızı-qırmızı dandı, belə olan təqdirdə ölkəsinin bölgə ilə bağını da necə deyərlər, yoxa çıxarır.

Halbuki, Nikolun yalan danışdığı gün kimi aydındır. Yalnız bircə faktı göstərək. İyunun 26-da İrəvanın hərbi təxribatı sonrası Azərbaycan Ordusu tərəfindən məhv edilmiş silahlıların ikisi Ermənistan vətəndaşı idi və onlar İrəvandakı Yerablur qəbirstanlığında gömüldülər, Qarabağda yox…

Diqqət edək, axı, Ermənistan Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini qabardırdı. İndi də eyni qaydada davranmaqdadır. Ancaq Paşinyan yaxşı anlayır ki, Ermənistanın mövcud istiqamətdəki cəhdləri əbəsdir. Azərbaycan öz mövqeyində qətidir və heç bir halda Bakı-Xankəndi dialoqu kimi avantüraya meydan tanıyıb separatçı rejimin hər hansı şəkildə leqallaşmasına imkan yaratmayacaqdır. Bakı Qarabağ ermənilərinin reinteqrasiyasından başqa yol görmədiyini dəfələrlə açıqlayıb. Yeri gəlmişkən, bu məqamı bir müddət əvvəl separatçı rejimin rəhbəri A.Arutyunyan da vurğulamışdı.

Bütün bunların fonunda da görürük ki, Paşinyanın Qarabağı tamamilə Rusiyanın üstünə atmaqdan başqa çarəsi qalmır. Bir daha bildirək ki, bu, Qərb formatının iyulun 21-də Brüsseldə keçiriləcək növbəti raundunun gündəliyini pozmaq üçün edilmiş gedişdir. Əslində, bu cəhd Azərbaycanın Qarabağ müstəvisində atacağı sərt addımlara rəvac vermək üçündür. İrəvan çalışır ki, Rusiya tərəfindən həmin addımlar onun özünə qarşı ünvanlanmış hərəkət kimi qəbullansın. Təbii ki, Moskvanın Bakıya münasibətdə əks addımlarının olmasına da, belə demək mümkünsə, sərmayə yatırılır. Ona görə də Arayik, yuxarıda da vurğuladığımız kimi, məktubunda Putindən qərar verməsini gözlədiyini yazır. Bu məktubun Moskva ilə razılaşdırıldığını, yoxsa Arutyunyanın ümidsizlik fəryadı olduğunu söyləmək çətindir.

Bəli, separatçıbaşı Arayikin fəryadının Rusiyada necə qarşılandığına aydınlıq gətirmək üçün Paşinyan-Putin telefon danışığı ilə bağlı bəzi məqamları yada salmağa ehtiyac var. Məlum olduğu kimi, sözügedən telefon zəngi ilə bağlı iki məlumat yayıldı. Birini Ermənistan hökuməti, digərini Kreml tirajladı. Birinci ikincidən fərqli olaraq daha yığcam idi. İrəvan bildirdi ki, telefon təması zamanı Qarabağda Laçın yolunun bağlanması ilə əlaqədar yaranmış humanitar böhran müzakirə olunub. Moskva isə əvvəla danışığın Ermənistan tərəfinin təşəbbüsü ilə gerçəkləşdirildiyini açıqladı. Yəni, minnət ritorikasını işə saldı.

Kremlin məlumatında, həmçinin ölkə liderlərinin Qarabağ ətrafındakı vəziyyəti, o cümlədən Laçın dəhlizi boyunca maneəsiz nəqliyyat əlaqələrinin təmin edilməsi məsələlərini müzakirəyə çıxardıqları vurğulandı. Habelə, Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında 2020-2022-ci illərdə imzalanmış bütün sazişlər kompleksinin ardıcıl şəkildə həyata keçirilməsinin prinsipial əhəmiyyəti önə çəkildi.

Moskva tərəfindən yayılmış məlumatdakı ən vacib məqam isə bu idi: "Rusiya Prezidenti Rusiyanın Ermənistan-Azərbaycan sülh müqaviləsinin işlənib hazırlanmasında əməli yardımı davamına hazır olduğunu təsdiqləyib. Müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi razılaşdırılıb".

Göründüyü kimi, Moskvadan Arutyunyanın ümidsizlik fəryadına anlaşılan reaksiya olmayıb. Yenə ümumi ifadələr səslənib. Eləcə də, Kremldə Paşinyanın gedişlərinin nəyə hesablandığını yaxşı bilirlər. Əlbəttə, Rusiya Cənubi Qafqazda varlığını sürdürmək üçün Qarabağ faktoruna ciddi önəm verməkdədir. Ancaq ölkə, çox güman, Ermənistanın oyunlarının da fərqindədir və yaxşı dərk edir ki, Paşinyan administrasiyası ona qarşı "tələ" hazırlayır. Əlbəttə, Azərbaycan və Ermənistan liderlərinin növbəti Brüssel görüşü öncəki bu "tələ", yuxarıda da vurğuladığımız kimi, İrəvanın Bakı ilə mövcud sülh gündəliyində dəyişiklik etmək məramını da hədəf seçib.

***Əvəz RÜSTƏMOV,***
***"Xalq qəzeti"***

# Separatçıların qarşıdurmasının yeni dalğası başlayıb

## Ermənilər özlərinə "azadlıq və təhlükəsizlik" bəxş edən "xilaskar" tapa bilmirlər

**Son vaxtlar Qarabağdakı erməni sepatratçılar arasında qarşıdurmanın yeni dalğası başlayıb. Buna səbəb Xankəndi və ətraf bölgələrdə öz mövcudluğunu saxlamaq istəyən separatçıların bu arzularını reallığa çevirəcək lider tapa bilməməsidir. Bütün qüvvələri birəşdirəcək liderin yoxluğu faktı başda separatçıların başçısı Arayik Arutyunyan olmaqla, digər rəhbərləri də tənqid və istehza hədəfinə çevirib.**

### Oskanyanın "Üç aya Qarabağ məsələsini həll edərəm" iddiasına cavab: "Səfehlikdir!"

Qarabağ separatçılarının düşdüyü dərin siyasi və daxili böhran hazırkı dövlət məmurları ilə yanaşı, keçmiş siyasətçiləri də "diriltməkdə", gündəmə gətirməkdədir. Bu siyasətçilərdən biri də sabiq xarici işlər naziri Vardan Oskanyandır.

Mövcud situasiyada öz siyasi imicini yaxşılaşdırmağa, "kölgədə qalan xilaskar" qismində yenidən gündəmə gəlməyə çalışan Oskanyan, Azərbaycanın çoxdan həll etdiyi Qarabağ problemini yenidən "həll etməyə" qadir olduğunu bildiirb. Vardan Oskanyan qeyd edib ki, Qarabağ məsələsini 3 aya həll etmək iqtidarındadır və bunun üçün onun sadəcə müzakirəçi təyin edilməsi kifayətdir.

Oskanyanın bu təklifi ermənilərin özləri tərəfindən ciddi istehza və gülüşə səbəb olub. Hakim "Vətəndaş sazişi" partiyasının nümayəndəsi, deputat Gevorq Papoyan Oskanyanın məlum açıqlamasını "axmaqlıq" kimi səciyyələndirib. Gevorq Papoyan qeyd edib ki, əgər Vardan Oskanyan bu qədər ağıllı və uzaqgörən olsaydı, o zaman xarici işlər naziri olduğu dönəmdə problemin həllinə az da olsa töhfə verərdi: "Vardan Oskanyan 10 il xarici işlər naziri olub, bildiyimə görə, Levon Ter-Petrosyanın dövründə o, 5-7 il xarici işlər nazirinin müavini vəzifəsində işləyib. Bütün bu dövr ərzində Qarabağ məsələsi ilə məşğul olub. Əslində, Vardan Oskanyana 15 il 3 ay vaxt lazım idi. Levon Ter-Petrosyan ona 5 il, Robert Köçəryan isə 10 il vaxt verdi. Ona görə də onun dedikləri mənasızdır".

### Arutyunyanın "liderlik piramidası"ndan qopan daşlar

Separatçılar arasında qarşıdurmanın güclənməsi, Azərbaycanın Xankəndi və ətraf bölgələrdəki separatçılar üçün çənbəri daraltması Arayik Arutyunyanın da nüfuzuna öz mənfi təsirini göstərməkdədir. Bunun nəticəsidir ki, sadə vətəndaşlarla yanaşı, həm də separatçılar arasında nüfuzunu itirən Arutyunyana qarşı "istefa" çağırışları artmaqdadır.

Xatırladaq ki, hələ bir ay bundan öncə Qarabağ separatçılarının "parlament sədri" Artur Tovmasyan Araiki bacarıqsızlıqda ittiham etmiş, onu istefa verməyə səsləmişdir. Arayikin liderliyinə olan inamsız münasibət Qarabağdakı sadə ermənilərlə yanaşı, separatçıların özünün də bu bölgəni tərk etməsi ilə müşahidə olunmaqdadır. İş o yerə çatıb ki, Arayik Xankəndidən qaçışın qarşısını almaq üçün bölgəni tərk edən məmurların cəzalandırılacağını bildirir, onları hədə-qorxu ilə dayandırmağa çalışır: "…Məmurların" və onların ailə üzvlərinin Qarabağı tərk etməsinin heç bir əsası yoxdur. Qarabağı tərk edən ermənilərlə bağlı ciddi qərarlar qəbul ediləcək. Mülklərini burada icarəyə verib gəlir əldə edirlər. Belə insanlara qarşı çox sərt münasibətin tərəfdarıyam. Anons verirlər, qışqırırlar, qaçırlar, hamı getmək istəyir... ilk növbədə kim getmək istəyirsə, cəhənnəmə getsin, səssiz-səmirsiz getsin, camaat burada yaşayıb-yaratmaq istəyir".

Arutyunyana qarşı siyasi müxalifətin çoxalması, dinc insanların ondan tamamilə üz döndərməsi, İrəvanın belə ona arxa çevirməsi separatçıların liderinin onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdırmaqdadır. Xankəndini tərk edən, yaxud müxalifət sırasına keçən hər bir ermənini A. Arutyunyanın "liderlik piramidası"ndan düşən daş hesab etmək olar. Hansı ki, bu daşların bir daha yerinə oturmayacağı gün kimi aydındır.



### İrəvan da separatçılara qarşıdır…

Qarabağdakı separatçılar daxilindəki gərginlik onların Ermənistanla olan münasibətlərinə də öz təsirini göstərməkdədir. Separatçıların idarəolunmaz qüvvəyə çevrilməsi, onlar arasında həmrəyliyin olmaması İrəvanın hər zaman dəstək verdiyi Qarabağ separatçıları ilə münaibətləri kəsməsinə səbəb olub. Bu fakt separatçıların nümayəndəsi Metakse Akopyan tərəfindən də təsdiqlənməkdədir. Akopyan qeyd edib ki, o, 200 gündən çoxdur ki, İrəvandakı həmkarları ilə telefon əlaqəsi yarada bilmir. Onun sözlərindən belə anlaşılıb ki, İrəvan məqsədli şəkildə separatçıların zənglərini cavabsız qoyur, onlarla təmas yaratmaqdan qaçır. Görünən odur ki, Qarabağdakı separatçılar arasındakı gərginlik və qarşıdurma onlar üçün həm də yeni problemlər yaratmaqda, separatçıları əlavə çətinliklərlə üz-üzə qoymaqdadır. İrəvanın separatçılara qarşı siyasi cəbhə açması da Arayik Arutyunyan və onun əlaltılarının üzləşdiyi "növbədənkənar problemlər"dən biridir. Hansı ki, rəsmi Bakının qətiyyətli siyasəti, siyasi-diplomatik təzyiqi fonunda bu problemlərin hər ötən gün daha da artacağı şübhəsizdir.

***Seymur ƏLİYEV***

# Azərbaycan artıq hamı üçün əhəmiyyətli ölkəyə çevrilir

## Bakıya çoxsaylı rəsmi qonaqların gəlməsi də bunun sübutudur

**İyulun 5-də Bakıda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü keçirildi. Mətbuat təmsilçiləri bu mötəbər təşkilatın paytaxtımızdan bütün dünyaya mesajlar verən möhtəşəm tədbiri haqqında, xüsusən, müzakirələrin ikinci günü imzalanan Bakı Bəyannaməsi barədə təəssüratlarını yekunlaşdırmamış həmkarlarımız daha bir mühüm tədbirin anonsunu manşetə çıxardılar: İyulun 7-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Albaniya Respublikasının Prezidenti Bayram Beqayın rəsmi qarşılanma mərasimi olub.**



> **Bizim xarici siyasətimiz həyatda özünü təsdiqləyib və bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Biz növbəti illərdə də müstəqil xarici siyasət aparacağıq, biz bunu indi də aparırıq. O qədər də böyük olmayan ölkələr üçün müstəqil xarici siyasət aparmaq heç də asan deyil, ancaq çox şərəflidir. Bəzi ölkələr başqa yol seçirlər, bəzi ölkələr başqa böyük ölkələrin qanadının altında yer alırlar. Bu, bəlkə daha rahat yoldur. Ancaq bizim yolumuz şərəfli yoldur, ləyaqətli yoldur, bu, müstəqillik yoludur.**
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Bu qonağın Bakıda keçirdiyi görüşlər, aparılan müzakirələr, əldə edilən razılaşmalar və müəyyən edilmiş yeni əməkdaşlıq sahələri haqqında formalaşdırılan xəbərlərin mürəkkəbi qurumamış eşitdik ki, Bakıda "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Maldiv Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

Yeni, dünya ictimaiyyəti öz qarşısında iqtisadi cəhətdən güclü, siyasi-diplomatik müstəvidə qətiyyətli, hərbi sahədə qüdrətli Azərbaycan dövlətini gördükcə, rəsmi Bakı ilə əməkdaşlıq, dostluq etmək istəyən ölkələrin sayı durmadan artır. Ancaq biz ölkəmizin dostlarının artmasının səbəbini bu faktlarla əsaslandırmağımıza baxmayaraq, beynəlxalq ictimaiyyətin müxtəlif qütblərini təmsil edən ekspertlər rəsmi Bakı ilə əməkdaşlığa maraq göstərənlərin sayının artmasını müxtəlif amillərlə əsaslandırırlar. Məsələn, ABŞ ekspertləri yazırlar ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığına görə biz hamımız bu ölkə ilə əməkdaşlığa mühüm önəm verməliyik. Avropa siyasətçiləri və qanunvericiləri Azərbaycandakı daxili sabitliyi yüksək qiymətləndirir, Qoşulmama Hərəkatına üzv olan dövlətlər Prezident İlham Əliyevin təşəbbüskarlıq və qətiyyətini. Türkdilli Dövlətlər Təşkilatındakı tərəfdaşlarımız ölkəmizdəki xalq–iqtidar birliyini üstün tuturlar, İslam dünyasındakı dostlarımız milli-mənəvi dəyərlərə böyük önəm verməyimizi, dünya yəhudiliyi isə hamıya nümunə olacaq multikulturalizm siyasətimizi bayraq edirlər. Dünyanın ən güclü dövlətlərindən olan Çin isə Qədim İpək Yolunun yeni variantı olan Şanxay–London iqtisadi layihəsinin reallaşdırılmasına xüsusi töhfələr verdiyimizə görə, daim Bakının mövqeyini dəstəkləyir.

Bu məqamda xatırladım ki, bu il mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda dünya ekspertlərinin suallarını cavablandıran Prezident İlham Əliyev demişdi ki, bizim beynəlxalq aləmdəki nüfuzumuzun artması siyasi-diplomatik fəaliyyətimizə verilən qarşılıqların göstəricisidir.

Dövlət başçımızın dostlarımız haqqında danışarkən Türkiyənin adını daha əvvəldə çəkməsi də təsadüfi deyildi: "Türkiyə və Azərbaycanı rəsmi olaraq müttəfiq edən Şuşa Bəyannaməsi burada, Şuşada, bu binadan bir neçə metr aralıda imzalanmışdır. Bu, tarixi hadisə idi. Buna baxmayaraq, Azərbaycanla Türkiyə arasında münasibətlər de-fakto müttəfiq münasibətləri idi və biz bunu xüsusi olaraq son iyirmi ildə nümayiş etdirmişdik. Prezident Ərdoğanın Türkiyəyə rəhbərlik etdiyi son iyirmi ildə bizim münasibətlərimiz mənim onunla birgə səylərimiz nəticəsində təkcə qardaş xalqlar arasında deyil, eyni zamanda, müttəfiqlər arasında olan münasibətlərə çevrilmişdir".

Dövlət başçımız həmin tədbirdə xatırlatmışdı ki, biz Avropa İttifaqına üzv olan doqquz dövlət ilə strateji tərəfdaşlıq sazişini və bəyannaməsini imzalamışıq: "Bəlikə, bu, üzv dövlətlərin üçdəbirini təşkil edir. Fərqi yoxdur, strateji tərəfdaşlıq haqqında imzalanmış və ya qəbul edilmiş bəyannamələr assosiasiya sazişindən daha böyük dəyərə malikdir".

Azərbaycan Prezidenti bir neçə gün əvvəl – iyulun 4-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə milli bayram münasibətilə ünvanladığı təbrik məktubunda yazırdı ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələr dostluq və əməkdaşlıq zəminində dinamik inkişaf edərək bir sıra sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir: "Qlobal çağırışlara, beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik məsələlərində fəal və səmərəli birgə işimiz, iqtisadi sahədə geniş spektrdə qarşılıqlı fəaliyyətimiz ikitərəfli münasibətlərimizi səciyyələndirən başlıca amillərdəndir".

Dövlət başçımız beynəlxalq aləmdəki iqtisadi layihələr barədə danışarkən, daim Çin iqtisadiyyatına da toxunur. Prezident bu il yanvarın 17-də Davosda Çinin CGTN televiziya kanalına verdiyi müsahibədə demişdi ki, biz müştərək faydanı görməyi öyrənməliyik: "Ərazimizdən nə qədər çox yük keçərsə, bizim bundan bir o qədər çox faydamız olar, bir o qədər də çox iş yerlərimiz olar. Çinin artıq yeni bir dəmir yolu layihəsinin təşəbbüsü ilə çıxış etdiyini və onu artıq başladığını bilirəm – Çin-Qırğızıstan-Özbəkistan. Bu layihə də bizə, Xəzər dənizinə istiqamətlənib. Bu, çox vacib əlavə təchizat marşrutudur. Orta dəhlizin parlaq gələcəyi var".

Bəli, Azərbaycan hamıya açıq ölkə olduğuna görə dostları da daim çoxalır, tərəfdaşları da. Elə ona görə də paytaxtımız hər gün qonaq-qaralıdır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Albaniya Avropada mötəbər tərəfdaşımızdır

*(əvvəli 1-ci səhifədə)*

İki ölkə arasında iqtisadi əməkdaşlığın uğurla gerçəkləşdirilməsi prezidentlər İlham Əliyev və Bayram Beqayın mətbuata bəyanatlarında da öz ifadəsini tapıb. Dövlətimizin başçısı Azərbaycan sərmayədarlarının Albaniyada istər turizm, istərsə də kənd təsərrüfatı və ya hər hansı digər sahədə investisiya layihələrini ciddi araşdırmağa hazır olmalarını da qeyd edib. Ölkə rəhbəri, eyni zamanda, hər iki dövlətin əməkdaşlığında əsas meyarın enerji sektoruna aid olmasını xüsusi vurğulayıb.

Dövlət başçılarının istər geniş tərkibli görüşlərində, istərsə də birgə bəyanatlarında vurğulandığı kimi, iki dövlət arasında əməkdaşlıq münasibətləri nəinki ölkələrimiz, o cümlədən böyük sayda digər dövlətlər, xüsusən də Cənub Qaz Dəhlizinin (CQD) əsas hissələrindən biri olan TAP üçün əhəmiyyətlidir. Həmin boru kəməri Albaniyanın ərazisindən keçir. Hazırda kəmər enerji təhlükəsizliyinin mənbəyidir, Azərbaycan və Avropa İttifaqının (Aİ) qaz təchizatı sahəsində fəal işini əks etdirir. Bununla yanaşı, Aİ ilə Azərbaycan arasında imzalanan Enerji sahəsində Strateji Tərəfdaşlıq sənədinə əsaslanaraq ölkələrimiz arasında sıx əməkdaşlıq üçün mühüm meyar kimi dəyərləndirilir. Çünki bir çox Avropa ölkələri üçün enerji təhlükəsizliyi, həmçinin CQD vasitəsilə təmin edilir. Həmin dövlətlərin sayı isə getdikcə artır və Aİ bazarına Azərbaycanın təbii qaz ixracı coğrafiyası genişlənir.

Azərbaycanın təşəbbüskarı və müəllifi olduğu nəhəng enerji infrastrukturu layihəsi olan CQD haqqında dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Aİ üçün prioritet enerji layihələrindən biri olan CQD ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişdirir. Bu baxımdan adıçəkilən dəhliz dünya neft-qaz sənayesində ən mühüm və iddialı layihələrdən biridir.




TANAP marşrutu sosial-iqtisadi əhəmiyyəti ilə CQD-nin önəmli həlqəsini təşkil edir. Bununla yanaşı, Azərbaycanın "Şahdəniz-2" yatağından çıxarılan təbii qaz TANAP-ın da yer aldığı CDQ-nin son hissəsi olan TAP bağlantısı ilə artıq Avropaya çataraq dünyanın bu regionunun enerji təchizatı təhlükəsizliyinə mühüm töhfə verir.

Sonda onu da xatırladaq ki, TANAP vasitəsilə bu il yanvarın sonuna qədər Türkiyəyə tədarük edilən təbii qazın miqdarı 14,5 milyard kubmetrə, TAP vasitəsilə Avropaya ötürülən qazın miqdarı isə 9 milyard kubmetrə çatıb.

TAP Albaniya ilə Azərbaycanı birləşdirən yeganə layihə deyil. Ölkəmizin şirkətləri tərəfindən indiyədək Albaniyada enerji, infrastruktur və turizm sahələrinə sərmayə qoyulub. Bu da iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olmasından xəbər verir.

Azərbaycan və Albaniya prezidentlərinin görüşlərində cari ilin sonunadək Aİ-yə üzv olan daha çox sayda ölkənin respublikamızdan təbii qaz alacağının gözlənildiyi də diqqətə çatdırılıb. Eyni zamanda, Azərbaycanın Avropaya, eləcə də Albaniyaya qaz tədarükü ilə bərabər, həm də dost ölkənin qazlaşdırılması layihəsinə də həssaslıqla yanaşdığı xatırladılıb və atrıq sınaq layihəsi seçildiyi qeyd edilib.



Sonuncu məsələ ilə bağlı bu istiqamətdə işlər cədvələ uyğun gedir və ilin sonunadək artıq bu layihənin texniki-iqtisadi əsaslandırılması yekunlaşacaq. Bundan sonra isə dərhal investisiya qoyuluşuna başlanılacaq. Bu, qazpaylayıcı şəbəkəsini qurmaq üçün Albaniyaya yatırılacaq xalis Azərbaycan investisiyası olacaq. Həmçinin bu zaman infrastrukturun Albaniyadan qonşu ölkələrə necə genişləndiriləcəyi barədə də layihələrin icrası diqqətdə saxlanılacaq.

Söhbətlərdə hər iki ölkə arasında indiyədək bağlanan ticarət sazişlərinin iqtisadi əlaqələrin genişləndirməsinə də müsbət təsir göstərdiyi vurğulanıb. Bildirilib ki, ölkələrimiz arasında ticarət dövriyyəsi illik 2 milyon dollardan çoxdur. Azərbaycanın Albaniyadan idxal etdiyi məhsulların dəyəri 1 milyon 750 min dollar, Albaniyanın Azərbaycandan idxal etdiyi məhsulların həcmi isə 700 min dollar təşkil edir. Bu, iqtisadi göstəriciləri şərtləndirən əsas məsələlərdən biridir.

Onu da qeyd edək ki, Azərbaycan Avropaya 2027-ci ilədək qaz təchizatını 2 dəfə artırmaq öhdəliyi götürüb. Bu, Azərbaycana böyük gəlir gətirəcək. Həm də Azərbaycan Albaniya, Şərqi Avropa da daxil olmaqla, həmin ölkələrin qaz və enerji təchizatında böyük paya malik olacaq. Albaniyanın TAP-dan əldə etdiyi faydalar həm iqtisadi, həm də regional enerji çıxışı və qovşağı kimi strateji əhəmiyyətinin güclənməsi baxımından da mühüm önəm daşıyır.

Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan Albaniyanın qaz təsərrüfatının inkişaf etdirilməsi istiqamətində investor rolunda da çıxış edə bilər. Bu, respublikamıza investisiya yatırılması nəticəsində dividend gəlirlərinin artmasına səbəb olar, eyni zamanda, yerli biznes strukturlarının daha səmərəli tərəfdaşlarla ticarət əlaqələri qurmasına şərait yaradar.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Heydər Əliyev – Azərbaycan intibahının müəllifi



**Allaha şükür edirəm ki, 2023-cü il ümummilli liderimizin 100 illik yubileyinə düşdüyünə görə, “Heydər Əliyev İli” elan edilib. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə respublikamızı çox ağır durumdan aqrar-sənaye dövlətinə çevirərək, ön sıralara çıxarmış, müstəqillik dövründə hüquqi-demokratik dövlət qurmuş, Vətənimizin dünya ölkələri sırasında layiqli yer tutmasına nail olmuşdur. Təhsilin, elmin, mədəniyyətin, incəsənətin sürətlə və hərtərəfli inkişafında ümummilli liderin müstəsna rolu və böyük xidməti olmuşdur.**

Ali vətəndaşlıq, milli mənafe meyarı və prinsipi Heydər Əliyev siyasətinin hər komponentində özünü göstərib. Ulu öndərin xalqımız, onun gələcək nəsilləri qarşısında ən böyük xidmətlərindən biri milli kadrların yetişdirilməsi, müstəqil dövlətimizin neft strategiyasını hazırlamaq və onu ardıcıllıqla həyata keçirməsi idi. Neft strategiyasının ölkə iqtisadiyyatının dünya birliyinə inteqrasiyasında, dövlət müstəqilliyimizin təminatında, respublikamızda infrastrukturların yüksək səviyyədə yenidən qurulmasında, cəmiyyətimizdə demokratik mühitin formalaşmasında, Azərbaycanın Qafqaz regionunun liderinə çevrilməsində müstəsna yeri və rolu var. Bu amillər dünyanın tanınmış dövlət xadimləri tərəfindən də dəfələrlə etiraf olunub.

Ümummilli lider yaxşı bilirdi ki, qloballaşmanın geniş vüsət aldığı informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrində rəqabətin gücləndiyi, o cümlədən təbii sərvətlərin getdikcə tükəndiyi bir vaxtda təhsil önəmlidir. Yüksək intellektli insan kapitalının formalaşmasında və davamlı inkişafın əsasını qoyan güclü iqtisadiyyatın qurulmasında təhsilin, xüsusilə də ali təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdı.

Ümummilli liderimizin tövsiyələrini xatırlayaq – cəmiyyətimiz daha sıx birləşməli, əsas hədəflərimiz yolunda dövlət müstəqilliyimizin möhkəmlənməsi və inkişaf etməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal olunmuş torpaqların azad edilməsi, respublikamızın dünya miqyasında özünəməxsus layiqli yerini tutması yolunda siyasi dünyagörüşündən, fikir müxtəlifliyindən asılı olmayaraq, bütün vətəndaşlarımız həmrəy olmalı, birləşməlidir. Bundan sonra ölkəmizdə heç bir təxribata, qarışıqlığa yol verilməməlidir. Bu tarixi xidmətlərin yalnız iki aspektinə diqqəti yönəltmək istəyirəm.

Təhsil: Ötən əsrin 70-ci illərində respublikamıza zəruri olan ixtisaslar üzrə mütəxəssislər hazırlayan ali məktəblər və kafedralar mövcud deyildi. Ölkəmizdən kənarda ali təhsil almaq üçün göndərilənlərin sayı isə əlli nəfər idi və onların sırasında milliyyətcə azərbaycanlılar azlıq təşkil edirdi. Hər il əlli nəfər gəncin Azərbaycandan kənarda ali təhsil almaq üçün göndərilməsi respublikamızın ali təhsilli kadrlara olan tələbatını ödəmirdi və onlara kəskin ehtiyac duyulurdu. Ulu öndər bu problemi həll edərək, hər il min nəfərdən çox istedadlı azərbaycanlı gənci xaricə təhsil almaq üçün göndərməyə nail olmuşdu.

Tarix göstərir ki, Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edilib bir müddət fəaliyyət göstərsə də, bu, uzun sürə bilməmişdir. Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoydu.

Hələ Sovetlər dövründə Heydər Əliyev Azərbaycan dilinin dövlət dili səviyyəsində tanınması üçün tarixi xidmətlər göstərmişdir. Yetmişinci illərin ortalarında Azərbaycanda yeni Konstitusiya hazırlanarkən ulu öndərin təşəbbüsü ilə Əsas Qanuna Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması barədə maddə daxil edildi. Ancaq bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Heydər Əliyevin bu məsələdə böyük inadkarlıq göstərməsi və dəmir məntiqi nəticəsində 1978-ci ildə respublikamızda qəbul edilmiş Konstitusiyada yazıldı: Azərbaycanın dövlət dili Azərbaycan dilidir.

Tam qətiyyətlə demək olar ki, ulu öndərin həmin dövrdə yürütdüyü fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk və milli azadlıq ruhunu yüksəltdi. Ulu öndərin təşəbbüsü və fəal iştirakı ilə 1995-ci il oktyabrın 31-də Konstitusiyanın dövlət dili haqqında maddəsi ilə bağlı keçirilən gərgin və tam demokratik müzakirələr nəticəsində də Azərbaycan dilinin qanuni haqqı öz təsdiqini tapdı.

Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi yolunda möhtərəm Heydər Əliyevin başladığı müqəddəs milli mücadilənin tarixi bir qərinədən çox davam etmişdir. Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş 1969–1982 və 1993–2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, beynəlxalq aləmin çox mötəbər məclislərinin kürsülərindən eşidilməsi ulu öndərimizin ana dilimizin inkişafına, onun sosial-siyasi və mədəni həyatda layiqli yer tutmasına göstərdiyi qayğı və diqqətin son dərəcə dəqiq, düşünülmüş və uzaqgörən siyasətin nəticəsində mümkün olmuşdur.

Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin keçmişin buxovlarından azad olunması, xalqın yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinə, real siyasi amilə çevrilməsinə nail olunmasıdır. Ulu öndər xalqın formalaşmasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir: “Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur”.

Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, Azərbaycan dili ilə yanaşı, onun incəsənətini, mədəniyyətini, tarixini, ədəbiyyatını dünyada geniş təbliğ etmək üçün ölkə vətəndaşlarının xarici dilləri mükəmməl bilməsi çox vacibdir, çünki xarici dillər Azərbaycan dilinin inkişafı üçün körpü rolunu oynayır. 2000-ci il iyunun 13-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev “Təhsil sisteminin təkmilləşdirilməsi haqqında” Fərman imzaladı. Həmin sənədə əsasən, Azərbaycan Dövlət Dillər İnstitutunun profili genişləndirilərək Azərbaycan Dillər Universiteti yarandı. Ana dilimizi, mədəniyyətimizi, tariximizi, ədəbiyyatımızı, adət-ənənələrimizi xarici ölkələrdə daha yaxından tanıtmaq baxımdan Azərbaycan Dillər Universitetinin rolu əvəzsizdir.

Ulu öndərin siyasətinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə “Ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasına dair 2019–2023-cü illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi təhsil sahəsində Azərbaycan üçün akademik heyətin hazırlanması baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Elm: Ümummilli lider Heydər Əliyev Sovet İttifaqı dağıldıqdan sonra Milli Elmlər Akademiyasının tənəzzülə uğraması və dağılmaq təhlükəsini nəzərə alaraq, respublikamızın alimlərini bir araya toplayıb, onlarla məsləhətləşib, akademiyanı xalqımızın milli sərvəti adlandırmış və onu bağlanmaq təhlükəsindən xilas etmişdir. Ulu öndərin göstərişi və dəstəyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyəti canlandı, onun bütün institutlarının maddi-texniki bazası zənginləşdi.

Azərbaycan Respublikasında yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində vahid dövlət siyasətini həyata keçirən ali attestasiya orqanının – Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının formalaşması və onun məhz Azərbaycan Respublikası Prezidenti yanında fəaliyyət göstərməsi Heydər Əliyevin müstəsna xidməti sayəsində mümkün olmuşdur.

Elmi tədqiqatlara dəstək vermək, xaricdə və ölkəmizdə keçirilən beynəlxalq elmi tədbirlərdə elmi işçilərin və alimlərin təmsil olunmasını təmin etmək məqsədilə Elmin İnkişafı Fondu yaradılmışdır. Elmi fəaliyyətin hüquqi əsaslarını təmin etmək və möhkəmləndirmək məqsədi ilə 2016-cı ildə “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir. 15 oktyabr 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun əsasında yaradılmış “Azərbaycan Elm Fondu” dövlət sifarişi əsasında fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli sahələr üzrə elmi tədqiqatları qrant şəklində maliyyələşdirir.

Ulu öndərin siyasi kursunun varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 dekabr 2018-ci il tarixdə imzaladığı “Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji kadrların attestasiyası işinin təkmilləşdirilməsi və kadr hazırlığının yüksəldilməsi” məqsədilə verilmiş sərəncam mühüm əhəmiyyət kəsb edir. Müasir dövrün tələblərinə müvafiq olan elmi tədqiqatlar elmimizin gələcəyi üçün geniş perspektivlər açır.

Respublikamızda alimlər, tədqiqatçılar və onlar üçün dövlət tərəfindən yaradılmış şəraitin nəticəsidir ki, bu gün Azərbaycan alimləri dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl elmi mərkəzlərində fəal tədqiqatlar aparırlar. Bu gün Azərbaycan qlobal əhəmiyyətə malik böyük elmi tədbirlərin keçirilməsi üçün əlverişli məkana çevrilib. Azərbaycanın paytaxtı Bakıda bir neçə beynəlxalq humanitar forumlar keçirilib və bu mötəbər tədbirlərdə tanınmış siyasətçilər, keçmiş dövlət rəhbərləri, müxtəlif elmlər üzrə Nobel mükafatı laureatları və iqtisadçılar iştirak ediblər.

Doğma universitetimizin tarixini araşdırarkən öyrəndim ki, ötən əsrin 20-ci illərində başlanmış, 1936–1937-ci tədris ilində ilk dəfə olaraq Azərbaycan Pedaqoji İnstitutunda (APİ) müstəqil “Xarici dillər” kafedrası yaradılmışdır. 1940-ci ildə APİ-nin Xarici dillər fakültəsi 1941–1942-ci tədris ilindən Pedaqoji Xarici Dillər İnstitutuna çevrildi. Azərbaycan Dillər Universiteti tarixi inkişaf yolunu belə keçib.

Universitetdə ştat üzrə 830 nəfərdən ibarət professor-müəllim heyəti fəaliyyət göstərir. Onlardan iki nəfəri AMEA-nın həqiqi üzvü, 36 nəfər elmlər doktoru, 19 nəfər professor, 270 nəfər fəlsəfə doktoru, 165 nəfər dosent, 595 nəfər müəllimdir. Tələbələrin ümumi sayı 7 min nəfərdən çoxdur.

Universitetdə təhsilin səviyyəsinin yüksəldilməsi, professor-müəllim heyətinin, tələbə (bakalvr və magistr), doktorant və dissertantların elmi və elmi-metodik fəaliyyət istiqamətlərinin bilavasitə tədris prosesinə inteqrasiyasına yardım məqsədilə əldə olunan elmi nəticələrin elektron variantlarının hazırlanması və elektron resursların bazasına yerləşdirilməsi, elmi-tədqiqat işlərinin mövzularına dair müvafiq informasiya təminatı, dünya standartlarına uyğun müasir məlumat-biblioqrafiya xidməti göstərilməsi işi aparılır.

Çox sevindirici haldır ki, ADU-da AMEA-nın həqiqi üzvü, universitetin rektoru Kamal Abdullayevin tövsiyəsi ilə Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi yaradılıb. Birinci kurs tələbələrinə lazım olan bədii ədəbiyyat kitabları alındıqda və qaiməsi universitet mühasibatına təqdim olunanda kitablar onlara bağışlanılır. Bu, rektorumuzun uzaqgörən və xoşniyyətli siyasətidir ki, tələbələrə şəxsi kitabxana yaratmağa təkan verir.

Bəllidir ki, dünyada universitetlərin reytinqinin müəyyənləşdirilməsi üçün meyarlar mövcuddur. Bu ilin mart ayında öyrəndik ki, dünya ali təhsil müəssisələri arasında keçirilən təhlilə görə, 1594 ali təhsil ocağı arasında Azərbaycan Dillər Universiteti müasir dillər üzrə (301–340) dünyada ən yaxşı universitetlər qrupuna daxil olub. Bu, ADU-nun kollektivi üçün böyük uğurdur.

Azərbaycan Dillər Universiteti təməli qoyulan gündən şərəfli yol keçir. Universitetimizdə iyirmidən çox dil və mədəniyyət mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlər xarici ölkələrdə Azərbaycan dilini və mədəniyyətini, bizdə isə xarici ölkələrin milli dilini və mədəniyyətini təbliğ edir. Serb dili və Mədəniyyəti Mərkəzi, Rumın dili və Mədəniyyəti Mərkəzi, Macar dili və Mədəniyyəti Mərkəzi, Pakistan (urdu) dili mərkəzi, Qədim Dillər Mərkəzi, Türkiyə Araşdırmaları Mərkəzi elmi-tədqiqatlar aparır. Universitetimizdə tələbələrə xüsusi diqqət yetirilir və önəm verilir, həmçinin onlara çoxlu fürsətlər yaradılır. “Kitab klubu”, “Gənc diplomatlar klubu”, “Səfir saatı klubu” kimi maarifləndirici klublar fəaliyyət göstərir. Bu da təsadüfi deyil, çünki bizim məzunlarımız Azərbaycan Respublikasının Prezident Administrasiyasında, Nazirlər Kabinetində, bütün nazirliklərdə, həmçinin nüfuzlu beynəlxalq statuslu neft və qaz şirkətlərində, respublikamızın bütün ali və orta təhsil ocaqlarında şərəflə öz peşə biliklərini təqdim edərək tərcüməçi və ya müəllim kimi, habelə müxtəlif səfirliklərdə diplomat kimi ADU-nu təmsil edirlər.

*Nigar VƏLİYEVA,*
***Azərbaycan Dillər Universitetinin Təhsil 1 fakültəsinin Elmi-Metodik Şurasının sədri, filologiya elmləri doktoru, professor***

## Ulu öndərin 100 illiyi münasibətilə elmi seminar

**“Heydər Əliyev İli” çərçivəsində Mingəçevir Dövlət Universiteti (MDU) ilə Mərkəzi Aran Regional Təhsil İdarəsi (RTİ) arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq Yevlax rayonu Xaldan kənd kompleks tam orta məktəbində “Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri” mövzusunda elmi seminar keçirilib.**




Mərkəzi Aran RTİ-nin müdiri Elçin Kərimov müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin Azərbaycanın rifahı və inkişafı naminə həyata keçirdiyi uğurlu inkişaf strategiyasından və misilsiz xidmətlərindən danışıb. MDU-nun rektoru Şahin Bayramov Ümummilli lideriin zəngin irsinin öyrənilməsi və təbliği sahəsində təhsil işçilərinin üzərinə düşən məsuliyyətdən bəhs edib.

Sonra Heydər Əliyevin keçdiyi həyat yolu və Azərbaycan təhsilinin inkişafında göstərdiyi xidmətləri əks etdirən videoçarx nümayiş olunub, şagirdlərin ifasında ədəbi-bədii kompozisiyalar təqdim edilib.

## Türk yazıçısı Ulu öndəri sevgi ilə xatırlayır

**“Ümummilli lider Heydər Əliyevin natiqlik qabiliyyəti, ətrafındakı insanlara göstərdiyi diqqət insanda heyrət yaradırdı. Mən Azərbaycanı Naxçıvan vasitəsilə Türkiyəyə birləşdirən “Ümid” körpüsünün açılışında bütün bunların şahidi olmuşam”. Ulu öndər, Türk dünyasının lideri Hüydər Əliyevi sevgi ilə xatırlayan Türkiyədə fəaliyyət göstərən İqdır–Azərbaycan Dil, Tarix və Mədəniyyət Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin, eləcə də İqdır–Azərbaycan Evinin sədri, tədqiqatçı-yazıçı Ziya Zakir Acar daha sonra bildirib:**



–Ötən əsrin 90-cı illərinin əvvəllərində ağır durumda olan Naxçıvana rəhbərlik edən Heydər Əliyev və Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəlin iştirakı ilə “Ümid” körpüsünün açılış mərasimində iştirakımı həmişə xoş duyğularla xatırlayıram. Həmin gün təkcə qəlbi həsrətlə çırpınan insanlarımız deyil, uzun illərin ayrılığından sonra doğma torpaqlarımız da yenidən bir-birinə qovuşurdu. Bu körpünün tikintisinin gündəmə gətirilməsi təkcə uzaqgörənlik deyil, eyni zamanda, vətənsevərliyin, türk dünyasının gələcəyi naminə zamanı qabaqlamaq qabiliyyətinin nişanəsi idi.

“Ümid” körpüsünün adı özündə böyük bir tarixi yaşadırdı. Belə bir tarixi mərasimin aparıcısı olmaq şərəfli olduğu qədər də bütün mənalarda məsuliyyətli idi. Ümummilli lider Heydər Əliyevlə ünsiyyətdə olmaq həyatımın ən unudulmaz səhifələrindən biridir. Türk dünyasının iki böyük liderinin Araz çayı üstündən səsləndirdiyi çağırışlar təkcə türk dünyasının yox, bütün Avrasiyanın gələcək taleyi üçün böyük ümidlər yaradırdı. Həyat göstərdi ki, Naxçıvan kimi, Türkiyənin şərq bölgəsinin sosial-iqtisadi inkişafı da məhz “Ümid” körpüsünün açılışından sonra sıçrayış götürüb.

Türkiyədə Azərbaycana olan həsrətin, Ermənistanın işğalçılıq niyyətləri əsasında yaranmış bütün narahatlıqların ümummilli lider Heydər Əliyevin Naxçıvanda rəhbərliyə gəlməsi sayəsində tədricən çəkildiyini, insanlarda gələcəyə olan ümid və inamın artdığını xatırladan Ziya Zakir Acar deyib:

–Azərbaycan xalqının Ümummilli lider Heydər Əliyevlə sabiq Türkiyə Prezidenti Süleyman Dəmirəl arasında dostluq və qardaşlıq münasibətləri, Türk dünyasının iki böyük liderinin bir-birilərinə göstərdikləri sonsuz hörmət və ehtiram hər iki ölkədə böyük məmnunluqla qarşılanırdı. Bu iki tarixi şəxsiyyətin “Ümid” körpüsünün açılış mərasimindəki dərin məzmunlu nitqləri bir tərəfdən insanları ümidsizlikdən qurtulmağa həvəsləndirirdisə, digər tərəfdən də mübarizəyə səsləyirdi.

Budur, indi Azərbaycan və Türkiyənin birgə liderliyində bütün türk dünyası birləşir, həmrəyliyimiz hər kəsə örnəkdir. Liderlərimizin 30 il əvvəl “ayrılıq” çayı üstündə səsləndirdikləri çağırışlara indi Arazın o tayından daha aydın qarşılıq verilir. Heydər Əliyevin yaratdığı təməllər xalqlarımızı bir-birinə daha möhkəm bağlayır.

***“Xalq qəzeti”***

# Haqq və ədalət Azərbaycanın tərəfindədir



## *Beynəlxalq Ədalət Məhkəməsi öz qərarı ilə İrəvanın riyakar və yalançı olduğunu sübuta yetirdi*

**Xəbər verdiyimiz kimi, Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın Ermənistanla sərhəddə Laçın sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə bağlı Ermənistanın vəsatətini rədd edib. Birmənalı şəkildə deyə bilərik ki, İrəvanın Beynəlxalq Ədalət Məhkəməsinə müraciətlərinə baxılmaması və onların yekdilliklə rədd edilməsi Azərbaycan diplomatiyasının uğurudur. Bakı ali femidaya təqdim etdiyi fakt və sübutlarla əsl həqiqəti ortaya çıxardı və ədalətli qərarın verilməsinə nail oldu. Beynəlxalq Ədalət Məhkəməsinin son qərarı: "Ermənistanın Laçın sərhəd-keçid məntəqəsinin götürülməsi ilə bağlı tələbi əsassızdır". Bununla bağlı Azərbaycan XİN ayrıca bəyanat yaydı.**

* * *

Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra bölgədə və beynəlxalq platformalarda söz sahibinə çevrilən rəsmi Bakının ərazi bütövlüyü, suverenlik, sərhədlərin toxunulmazlığı kontekstində diktə etdiyi siyasi gündəlik davamlı şəkildə öz bəhrəsini verməkdədir. Azərbaycanın Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərindəki körpüdə nəzarət-buraxılış məntəqəsini qurması əvvəlcədən qəbul etdiyi qərarın, ortaya qoyduğu siyasi iradənin və prinsipiallığın nəticəsidir. Yəni, İrəvandan fərqli olaraq Bakı daim dediyi sözün, verdiyi vədin arxasındadır. Haylarda bizə qarşı qıcıq yaradan səbəblərdən biri də məhz xoşniyyətli, dürüst və ədalətli olmağımızdır. Təəssüf ki, ermənilər bu kimi normal insani keyfiyyətlərdən məhrum, utopik xəyallarının gerçəkliyə çevriləcəyinə inanan, yarımçıqlıq kompleksindən əziyyət çəkən xəstə bir toplumdur. İrəvan iqtidarının diplomatik fəaliyyəti də bu xislətin inikasıdır desək, yanılmarıq. Xüsusilə son iki-üç ildə müşahidə etdiyimiz Ermənistan diplomatiyasının hər vasitə ilə Azərbaycanı ləkələmək, beynəlxalq nüfuzumuza və imicimizə zərbə vurmaq kimi xəbis niyyətləri elə niyyət olaraq qalır. Əslində, İrəvanın Beynəlxalq Ədalət Məhkəməsinə müraciətləri Azərbaycanın Ermənistanla şərti sərhəddə nəzarət-buraxılış məntəqəsinin qurulmasına qarşı həyata keçirilən genişmiqyaslı kampaniyanın tərkib hissəsi idi. BƏM-in bu qərarı hayların təxribatçı kampaniyasını darmadağın etdi. İrəvan bu kimi addımları atmaqla nüfuzlu beynəlxalq təşkilatlarda özünün riyakar və yalançı olduğunu sübuta yetirir. Son nəticədə gözdən və nüfuzdan düşür. Yalanlara, təhriflərə, bir çox hallarda isə şər-böhtana söykənən hayların diplomatik fəaliyyəti birinci dəfə deyil iflasa uğrayır. Ötən ilin oktyabrında Beynəlxalq Ədalət Məhkəməsi "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın tətbiqi ilə bağlı müvəqqəti tədbirləri əsas gətirərək Ermənistanın 7 dekabr 2021-ci il tarixli məhkəmə qərarına dəyişiklik edilməsi barədə tələbini rədd etmişdi.

* * *

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri, siyasi ekspert Fərid Şəfiyev** hesab edir ki, Azərbaycan üçün bu qərarın ən önəmli tərəfi aprel ayında şərti sərhəddə qurduğumuz nəzarət-buraxılış məntəqəsi ilə bağlı yeni hökmün olmamasıdır: "Yəni, bunu



belə qəbul etmək lazımdır ki, bu, bizim beynəlxalq hüququmuzdur. Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın müraciətinə reaksiya verməyib. Bəli, bu, Azərbaycanın qələbəsidir. Düzdür, hər iki tərəf məsələni fərqli şəkildə interpretasiya edir. Ermənilər iddialarında Laçın yolunda hərəkətin azad və sərbəst olmasını qeyd ediblər. Biz də öz tərəfimizdən deyirik ki, bu yolda hərəkət üçün hər cür şərait yaratmışıq, Qarabağda yaşayan ermənilər məntəqədən sərbəst şəkildə keçə bilirlər. Bəli, birincisi, sərhəd-keçid məntəqəsinin yaradılması suveren Azərbaycanın müstəsna hüququ idi. İkincisi, həmin yoldan daşınan yüklərə, keçən insanlara nəzarət etmək hüququmuzu beynəlxalq hüququn özü də tam dəstəkləyir". Ekspert onu da vurğuladı ki, məhkəmənin fevral qərarında hüquqi baxımdan bizim üçün, qismən də olsa, təhlükəli məqamlar var: "Həmin məqamlar bütünlüklə aradan qaldırılmasa da, əsas uğurumuz aprel ayında sərhəd məntəqəsini açmaqla yeni bir mərhələyə qədəm qoymağımızdır. Məhz Laçın sərhəd postu ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinin qərarı ən böyük uğurumuzdur".

BƏM-ə müraciətlərinin aqibətinin belə olacağını təkcə Hayastan deyil, onun böyük bacılığı Fransa da gözləyirdi. Yəni, belə bir qərar çıxarılacağını, bu beynəlxalq müstəvidə də canfəşanlığının səmərəsinin olmayacağını rəsmi Paris öncədən bilirdi. Məhkəmənin məlum qərarından dərhal sonra Fransanın xarici işlər naziri Ketrin Kolonnanın erməni həmkarı Ararat Mirzoyana zəng edib təsəlli verməsi də tamamilə başadüşüləndir.

Öz ərazisində sərhəd-keçid məntəqəsi qurmaq hər bir dövlətin suveren hüququdur. Beynəlxalq Ədalət Məhkəməsinin borcu həmin hüququ ratifikasiya etməkdir. Amma keçmişin acı təcrübəsi onu göstərir ki, beynəlxalq məhkəmələr bəzən "böyük güclərin" təsiri altında ədalətsiz qərarlar qəbul edə bilirlər. Yəni, məhkəmələrin bu və ya digər məsələyə, prosesə qərəzli yanaşma sərgilədiyi nümunələr də var. Belə hallara daha çox Avropa İnsan Haqları Məhkəməsinin təcrübəsində rast gəlirik. Burada qəbul edilən qərarlara təsir etməyə cəhdlər göstərən ölkələrdən biri də Fransadır.

* * *

Məhz böyük güclərin çeşidli təzyiqləri altında ədalətsiz qərarların verildiyini nəzərə alsaq, BƏM-in Laçın yolu ilə bağlı qərarını Azərbaycanın uğuru kimi dəyərləndirmək olar. Paris hər vəchlə çalışırdı ki, Ermənistanın yersiz və qanunsuz iddiası öz təsdiqini alsın. Amma bu, baş tutmadı. Necə ki, onun Azərbaycanın əleyhinə iki dəfə – BMT-də və fransızdilli ölkələrin zirvə toplantısında hazırladığı sənəd ləğv olunmuşdu.

**"Bu, böyük bir dönüş yarada biləcək hadisədir. Ermənilərin yalan və iftira massivinin çox böyük olduğunu bilirik. Yüz il boyu gördükləri işlərin bəhrəsidir. Onlar fantaziyaları hesabına, nağıl və əfsanələr quraşdırmaqla özlərini qədim tarixə, zəngin potensiala malik millət kimi dünyaya sırımağa çalışırlar. Amma ən azı Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklər onu göstərir ki, bunlar heç də o qəbildən deyillər", – deyən politoloq Tofiq Abbasov** hesab edir ki, BƏM-in çıxardığı qərar Azərbaycanın beynəlxalq qaydalara uyğun fəaliyyət göstərdiyini, heç bir qanunverici aktı pozmadığını bir daha təsdiqlədi: "Bu, ermənilərin özünüifşa prosesinin başlanğıcı kimi olduqca vacib məsələdir. Özümüzdən



daha çox beynəlxalq birlik, beynəlxalq institutlar üçün vacibdir. Çünki onlar bir çox hallarda erməni təbliğat maşınının təsiri altına düşməklə bizim imicimizə, nüfuzumuza kölgə salmaqla, qarayaxma ilə məşğul idilər. Həmin prosesdə beynəlxalq birliyin bəzi qüvvələri hayların yalançı həqiqətlərinin arxasınca gedirdi. İndi biz düz işləməyin, qanunlara riayət etməyin nə dərəcədə vacib olduğunu gördük. Həm müharibəyə qədər, həm də müharibədən sonra, demək olar ki, yanlış addım atmamışıq. Məramımız kimi, bütün hərəkətlərimiz doğru, qanuni və ədalətli olub. Bu hərəkətlərdən nə bölgədəki qüvvələr, nə də beynəlxalq birlik inciyə bilər".

Ermənilərin Qarabağda blokada, etnik soyqırımı kimi hay-küylərinin sabun köpüyü kimi partladığını deyən ekspert T.Abbasov onların ağ yalanı informasiya məkanına translyasiya etdiklərini, amma bunun heç bir fayda gətirməyəcəyini əminliklə bildirdi: "Belə düşünürəm ki, biz ciddi dönüş yarada bildik. Ona görə də Azərbaycan diplomatiyasının bu addımı son dərəcə əhəmiyyətlidir. Həm də onu göstərir ki, bölgədə həqiqətən də sabitliyin, təhlükəsizliyin və əmin-amanlığın təminatçısı Azərbaycandır. Ermənilər isə həmişə yedəkdə gediblər".

* * *

Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın vəsatətini təmin etməməsi həm də naxələf və bədnam qonşularımızın Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı 1988-ci ildən başlayan "Miatsum" layihəsinin sona çatması deməkdir.

Ermənilərin "Laçın yolu davası"nın fiaskoya uğrayacağı həm hüquqi, həm məntiqi, ilk növbədə isə beynəlxalq qayda və standartlar baxımından əvvəlcədən bəlli idi.

**Ermənistanın sistemli şəkildə istər Beynəlxalq Ədalət Məhkəməsi, istərsə də Avropa İnsan Hüquqları Məhkəməsi kimi nüfuzlu hüquqi təsisatın imkanlarını və qərarlarını həyasızcasına manipulyasiya etmək cəhdlərini davam etdirdiyinə diqqəti çəkən politoloq Yeganə Hacıyeva** onun Azərbaycanın suveren ərazilərində konstitusiyanın tələbləri, şərtləri əsasında atdığı legitim addımını BƏM-də mübahisələndirməyə baş vurmasının fiaskoya uğramasını tam məntiqi sayır:

"Bu, Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinin ardı kimi beynəlxalq müstəvidə hüquqi alətlərdən yararlanmaq



təşəbbüsü idi. Yəni, yaratmağa çalışdığı süni gündəmlə Ermənistan Qarabağ münaqişəsinin əsas səbəblərini təhrif etmək, silahlı birləşmələrinin Azərbaycan torpaqlarında qanunsuz qalmasını, təbii sərvətlərini talamasını, ekoloji terroru ört-basdır etmək məqsədini güdürdü. İrəvanın beynəlxalq hüquqi və siyasi təşkilatlara etdiyi müraciətlər, qaldırdığı vəsatətlər və iddialar, adəti üzrə, aşkar yalandan başqa bir şey deyil. Ermənistanın siyasi rəhbərliyinin bir neçə epizod üzrə istər lokal, istərsə də beynəlxalq auditoriya qarşısında BƏM, Avropa İnsan Hüquqları Məhkəməsi kimi nüfuzlu hüquqi təsisatlarının qərarlarını həyasızcasına manipulyasiya cəhdlərini izləmişik".

Narahatlıq doğuran məqamın Ermənistan və onun havadarlarının əsassız, beynəlxalq hüquqa zidd addımlarına bəraət qazandırmaq cəhdlərinin olduğunu söyləyən ekspert qeyd edir ki, bu qərar BƏM tərəfindən Ermənistana rədd etdiyi ilk vəsatət deyil: "İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı müvəqqəti tədbirləri göstərən məhkəmənin 7 dekabr 2021-ci il tarixli qərarında dəyişikliklə bağlı tələbini də rədd etmişdi. Bundan başqa, Avropa İnsan Hüquqları Məhkəməsində Ermənistan hökumətinin Azərbaycana qarşı Məhkəmə Reqlamentinin 39-cu Qaydasına uyğun olaraq Qarabağda hücum əməliyyatlarının dayandırılması üçün Azərbaycana qarşı öhdəlik yaradan tədbirlər görməyi xahişini, 19 avqust 2022-ci ildə Ermənistanın Azərbaycana qarşı müvəqqəti təminat tədbirlərinin tətbiqinə dair vəsatətini, bu il iyunun 21-də isə həmin məhkəmə terrorçuluq, dövlət sərhədini qanunsuz keçmək və digər cinayətlərdə təqsirləndirilən iki erməni hərbi qulluqçusu ilə bağlı Ermənistanın Azərbaycana qarşı müvəqqəti təmin tədbiri tətbiq edilməsinə dair tələbini rədd edib. Bizim xeyrimizə qəbul olunan hər bir qərar zəhmət və əməyin nəticəsi, zamanında və cəld verilən cavablar, təqdim olunan sübutlar və əlbəttə ki, bütün bunların hüquqi əsaslandırılması ilə həyata keçirilən sistemli bir fəaliyyətdir".

* * *

**"Təhlükəsizlik nöqteyi-nəzərindən Laçın nəzarət-buraxılış məntəqəsinin xüsusi əhəmiyyəti var. Çünki bu post fəaliyyətə başlamazdan əvvəl Qarabağa qeyri-qanuni yolla silah-sursat, mina, diversantlar, texnika daşınırdı", – deyən politoloq İlyas Hüseynov** hesab edir ki, sərhəd postunun qurulduğu 23 aprelə qədər Xankəndidəki separatçı rejim Azərbaycanın suveren ərazisində terror yuvası, təhdidlər mərkəzi formalaşdırırdı. Politoloqun fikrincə, bu gün Azərbaycanın siyasi qətiyyəti həm də beynəlxalq auditoriya tərəfindən qəbul olunmuş faktdır: "Əslində, Azərbaycan diplomatiyasının uğurlu siyasi xətti məhz beynəlxalq hüququn fundamental norma və prinsiplərinə söykənir. Bizim suveren hüquqa malik olduğumuz bütün narrativlər artıq dünya ictimaiyyəti tərəfindən qəbul olunur. Bu, rəsmi Bakının yeritdiyi məqsədyönlü, ardıcıl siyasətin nəticəsidir. Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq platformalarda, qarşısında çıxış etdiyi auditoriyalarda regional siyasətə dair müfəssəl, geniş məlumatlar verir. Sonra həmin məlumatlar real nəticəyə çevrilir. Artıq mühüm mübahisələrin həll



olunduğu Beynəlxalq Ədalət Məhkəməsi də Azərbaycanın mövqeyini dəstəkləyir. Beynəlxalq femida qarşı tərəfin vəsatətini rədd etməklə həm də beynəlxalq hüquqa hörmətini ifadə etmiş oldu". Beynəlxalq Ədalət Məhkəməsinin qərarı beynəlxalq hüquqdan irəli gələn tələblərin icra olduğunun sübutudur. Heç kəsə sirr deyil ki, bugünədək Rusiya sülhməramlıları və Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən bölgəyə humanitar yüklərin daşınmasında məhdudiyyət olmayıb. BƏM BMT-nin təməl prinsiplərindəın sayılan hər bir ölkənin suverenliyinin, ərazi bütövlüyünün tanınması üzərində qiymətləndirmə həyata keçirir. Qarabağda yaşayan erməni əsilli vətəndaşların, guya, ayrı-seçkiliyə məruz qalma iddiası ona görə ləğv olundu ki, bu adamlar Azərbaycan vətəndaşlarıdır. Yəni, femidanın çıxardığı qərar həm də onun Azərbaycanın daxili məsələsinə göstərdiyi münasibətin təzahürüdür. Bu baxımdan Beynəlxalq Ədalət Məhkəməsinin qərarı bizdən ötrü özündə hüquqi xarakteri ilə yanaşı, həm də ciddi siyasi uğuru əks etdirir. Eyni zamanda, bu qərar Ermənistanın beynəlxalq hüquq müstəvisində genişləndirməyə çalışdığı kampaniyanın qarşısına sədd çəkdi. Yuxarıda qeyd etdiyimiz kimi, ermənilərin özləri və xəstə təfəkkürlü siyasi hakimiyyəti sülhə gəlməməkdən ötrü min oyundan çıxır. Onların qoca qitədəki havadarları isə Azərbaycanın haqq işinə mane olmaqdan ötrü daha hansı üsullara əl atmaq barədə düşünürlər. Daha alınmayacaq. Çünki artıq dünya gücləri, beynəlxalq təşkilatlar, həmçinin ali femida kimin kim olduğunun fərqindədir.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

# Özünə umac ova bilməyən Qafqazda əriştə kəsmək istəyir...

**Fransa yenə də Qarabağ iqtisadi rayonunda yaşayan etnik ermənilərin reinteqrasiyası kimi Azərbaycanın sırf daxili işinə müdaxilə edir. Ölkənin xarici işlər naziri Ketrin Kolonnanın tvitterdəki mikrobloqunda yazdıqları bundan xəbər verir. Xanım nazir bugünlərdə yazıb ki, Fransa Qarabağda (o, haylar kimi, Qarabağ sözünün əvvəlinə "dağlıq" ifadəsini artırmağı da yaddan çıxarmır-S.H.) yaşayan ermənilərin hüquqlarını qorumaqla Ermənistanın Azərbaycanla danışıqlar yolu ilə sülhə nail olmaq istiqamətində səmimi səylərini (?) dəstəkləyir. Daha sonra qeyd edib ki, Fransa ədalət və beynəlxalq hüquqa hörmət naminə öz qüvvələrini səfərbər edir (?).**

Burada sual yaranır: Ermənistan sülhün əldə olunmasında nə dərəcədə səmimidir? Ortada olan faktlar İrəvanın sülh istəyində səmimi olmadığını göstərir. Halva-halva deməklə ağız şirin olmadığı kimi, barış, əməkdaşlıq deməklə də sülh əldə olunmur. Bölgədə davamlı sülhün əldə olunması üçün ortaya siyasi iradə qoymaq gərəkdir. Siyasi iradənin mövcudluğu isə hələlik Ermənistan hakimiyyətində müşahidə olunmur. Bugünlərdə 44 günlük Vətən müharibəsinin başa çatmasının iki il səkkiz ayı tamam olur. Ötən müddət ərzində Ermənistanla sülh sazişinin imzalanması istiqamətində danışıqlar aparılsa da, hələlik, yekun nəticə əldə etmək mümkün olmayıb. Bunun da təqsirkarı, birmənalı olaraq, rəsmi İrəvandır. Haylar iki ölkənin şərti sərhədində vaxtaşırı təxribatlar törədir, danışıqlar prosesində yeni-yeni əsassız tələblər irəli sürür, prosesi hər vəchlə pozmağa çalışırlar. İki ölkə arasında sərhədlərin delimitasiya prosesində ciddi tərpəniş, Zəngəzur dəhlizinin açılması məsələsində də irəliləyiş yoxdur. Qarabağdan erməni yaraqlıları çıxarılmayıb, Ermənistan faktiki işğal altında saxladığı Azərbaycan anklavlarını qaytarmaqdan imtina edir. Bütün bunlar İrəvanın gerçək sülhdə maraqlı olmadığını göstərir.

***

Maraqlıdır ki, Fransa rəsmilərinin bu açıqlamaları Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ da daxil olmaqla 86,6 min kvadratkilometr ərazidə suverenliyini tanıdığını bəyan etməsi, yeni ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi fonunda baş verir. Belə olan təqdirdə, Fransanın baş diplomatının, o cümlədən digər rəsmilərinin bu mövqeyi onların Roma papasın-



dan daha artıq katoliklik etməyə çalışdığının göstəricisidir. Onlar bu cür mövqe nümayiş etdirməklə bütün normaları aşmış olurlar. Bu kimi qərəzli bəyanatlar bölgədə sülhün və əmin-amanlığın bərqərar olmasına mane olmaqla yanaşı, separatçılıq və terrorçuluğu təşviq edənlərin və dəstəkləyənlərin destruktiv fəaliyyətini daha da genişləndirməsinə rəvac verir.

***

Fransanın bu qərəzli mövqeyi təkcə Azərbaycanda etiraz doğurmur. Xarici ekspertlər də Parisin mövqeyindən narazıdırlar. Məsələn, İsrailin "İsrail Milli Xəbərləri – Arutz Şeva" radiostansiyasının saytında Ariel Koqanın Fransanın ikili standartlarına həsr olunmuş məqaləsi dərc olunub. Postsovet məkanı üzrə mütəxəssis olan A.Koqan yazır ki, Fransada iğtişaşlar zamanı Holokost qurbanlarının xatirəsinə ucaldılmış abidə təhqir edilib: "Fransa od içindədir. Tərk edilmiş ərazilərin sakinləri hökumətə, ağdərililərə və yəhudilərə çoxdan nifrət bəsləyirlər. Bütün bunlara baxmayaraq, Prezident Emmanuel Makron narahat görünmür, hətta Elton Conun konsertində rəqs edib. Fransız yəhudiləri, deyəsən, Makron qədər əylənmirlər – onların çoxu böyük müsəlman əhalisi olan şəhərətrafı qəsəbələrdə yaşayır və iğtişaşlar onlar üçün birbaşa təhlükə yaradır. Fransanın ikili standartları təkcə Yaxın Şərqdə özünü büruzə vermir. Prezident Makron Parisdəki iğtişaşlara az diqqət yetirərək, diqqətini başqa şeyə, yəni bütün Avropa İttifaqı və İsrail üçün enerji resursları mənbələrindən biri olan Cənubi Qafqazın strateji əhəmiyyətli regionunda münaqişənin qızışdırılmasına yönəldib. Regional qarşıdurmanın mərkəzində vaxtilə işğal olunmuş Azərbaycan ərazisi olan Qarabağdakı separatçı birləşmə dayanır. Aİ, ABŞ və təbii ki, İsrail münaqişənin sülh yolu ilə həllində maraqlıdır, çünki Azərbaycan Rusiya qazı və neftinə strateji alternativdir. Yəni münaqişənin gərginləşəcəyi təqdirdə enerji resurslarının Avropaya axını pozula bilər. Aİ və ABŞ Bakı ilə İrəvan arasında sülh sazişinin əldə edilməsində vasitəçilik etməyə çalışsa da, Fransa, Rusiya və İranla birlikdə Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin əleyhinədir".

Məqalədə bildirilir ki, Makron öz ölkəsindəki iğtişaşlarla mübarizə aparmağa belə cəhd etmədən başqasının sədaları altında rəqs edir. O, iyunun 27-də Marseldə erməni icmasının liderləri ilə görüşündə deyib ki, "Fransa Qarabağ məsələsində aydın mövqeyə malik yeganə ölkədir". Müəllifin fikrincə, görünür, o, regionda separatizmi dəstəkləməkdə davam edəcək: "Makronun Qarabağda separatizmi aktiv şəkildə dəstəkləməsi, hətta, onları hərbi texnika ilə təmin edəcəyini vəd etməyə qədər gedir. Makron Aİ-nin rəsmi mövqeyi ilə ziddiyyət təşkil etdiyindən xəbərsiz ola bilməz, amma, görünür, onun çox da vecinə deyil. Makronun siyasəti nəticəsində mümkün eskalasiya ilə bağlı narahatlıqlar əsaslıdır. "The Wall Street Journal" qəzeti yazır ki, Paris, ümumilikdə, Cənubi Qafqazda Rusiya və İranın oyununu gücləndirən mövqe tutub. Prezident Emmanuel Makron regionda diplomatiya aparmaq üçün çox səy göstərir, lakin onun hərəkətləri Azərbaycanın yox, Ermənistanın xeyrinədir".

"Fransanın indiki siyasəti Qərb və İsrail üçün təhlükədir", – deyə israilli ekspert yazıb.

Onu da qeyd edək ki, iyulun 6-da Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan fransız həmkarı ilə telefon danışığı aparıb. Bu barədə yayılan rəsmi məlumatda qeyd olunur ki, tərəflər "Azərbaycanın Laçın dəhlizini qeyri-qanuni şəkildə bağlaması nəticəsində Qarabağda yaranmış humanitar böhranı" müzakirə ediblər. Fransa bu cür mövqe nümayiş etdirməklə özünü gözdən salır, olan-qalan nüfuzunu da itirir. Rəsmi Parisin bu mövqeyindən geri çəkilməsi Ermənistanla Azərbaycan arasında real sülhün əldə olunmasına, Cənubi Qafqazın çiçəklənən bölgə kimi inkişafına gətirib çıxaracaq. Fransa bölgədə əngəlləyici rol oynamaqdan tez bir zamanda əl çəkməlidir.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

## Ekspert rəyi

**Rizvan HÜSEYNOV,**
**politoloq**



– Fransa Prezidenti Emmanuel Makronun Azərbaycanın ünvanına son vaxtlar səsləndirdiyi çox yersiz və sərt çıxışları əks-effekt verdi və Parisi bizim bölgəmizdən daha çox uzaqlaşdırdı. Yəni, itirən Fransa oldu. Xarici işlər naziri Ketrin Kolonna indi münasibətləri yumşaltmağa səy göstərir. İkibaşlı, çoxmənalı cümlələrlə havadarı olduqları ermənilərin xətrinə dəyməməyə çalışır. Ancaq tvitter-də yazdığından belə çıxır ki, o, Qarabağın "müstəqilliyini" tanımasa da, burada ermənilərin yaşadığını vurğulayır, həmçinin oranın Azərbaycan ərazisi olduğunu qeyd etmir. Düzdür, başqa ölkə nümayəndəsi bu fikri səsləndirsəydi, Azərbaycan təərfindən sərt tənqid olunardı. Amma Fransa ənənəvi, yüz faizlik ermənpərəst mövqedən çıxış edir. Bu dəfə Ketrin Kolonnanın belə deyək, yalandan da olsa, neytrallıq nümayiş etdirməsi Fransada İranın yolu ilə getdiklərini çox gözəl başa düşdüklərini göstərir. O mənada ki, İran ötən il və bu ilin əvvəlində Azərbaycana təzyiq göstərmək istədi. Hətta hərbi-siyasi təzyiqə əl atdı. İran-Azərbaycan sərhədində İnqilab Keşikçiləri Korpusunun (SEPAH) 50 minlik ordusu güc nümayiş etdirmək istəyirdi, amma nəticədə həm İranda daxili iğtişaşlar başladı, həm də İran Azərbaycanda olan-qalan nüfuzunu itirdi. İndi Fransa da həmin yolu gedir. Həm özünü xərclədi, həm də Fransada iğtişaşlar davam edir. Daxili qarşıdurma pik həddə çatıb. Küçələrdə narazı kütlələr avtomobilləri aşırır, onları yandırır, mağazaların vitrinlərini sındırırlar. Əsasən ermənilərin sevimli Marsel şəhərində iğtişaşlar nəzarətdən çıxıb və Fransa dövləti üçün tam təhlükədir.

Buradan çıxan nəticə odur ki, istər İran, istərsə də Fransa anlamalıdırlar ki, bu regionda təkcə Azərbaycanın maraqları yox, həm də Azərbaycanın müttəfiqlərinin və tərəfdaşlarının maraqları var. Nə İran, nə də Fransa 44 günlük Vətən müharibəsindən sonra yaranan yeni geopolitik reallığı dəyişə bilməzlər. Onların sözün məcazi mənasında desək, dişlərini sındırdılar. Ona görə də Kolonna indi hardasa münasibətləri qaydaya salmağa çalışır.

Həmçinin, İranın xarici işlər naziri bir müddət öncə Bakıda oldu. İran-Azərbaycan münasibətlərinin yumşaldılması üçün çox cəhdlər var. Paralel olaraq Fransa da bunu edir. Nə qədər qəribə də olsa, bu, Fransa-İran-Rusiya alyansıdır. Biz burada üç ölkənin işbirliyini görürük. Fikir verirsinizsə, hər üç ölkədə daxili problemlər var. İstər Rusiayda Priqojin qiyamı və ondan sonrakı siyasi böhran, istər Fransada daxili böhran, istərsə də İranda ali dini rəhbərliklə SEPAH tərəfdarları arasında çox ciddi çəkişmələr gedir. Yəni, eyni vaxtda həm Kremldə, həm Yelisey sarayında, həm də Tehranda didişirlər. Həm də ictimai-siyasi vəziyyət çox ağırdır. Bu, onu göstərir ki, adları çəkilən ölkələr özlərini xərclədilər. Uğursuz mövqe seçdilər. Ermənistanı və Qarabağı müdafiə etmək adı ilə bizim bölgəmizdə olan-qalan dayaqlarını itirdilər. Sonda onu da qeyd edək ki, bu il prinsipialdır. İlin sonunadək Azərbaycan və onun müttəfiqlərinin layihələrinə qarşı çıxan ölkələr layiqli cavablarını alacaqlar. Necə ki, artıq almağa başlayıblar.

# Beynəlxalq qurumlar təsdiqləyir: Azərbaycan iqtisadi azadlığı olan ölkədir

**Prezident İlham Əliyev son illərdə sosial-iqtisadi çağırışları nəzərə alaraq ölkədə islahatları daha da sürətləndirib. Bu islahatlar məzmununa görə məqsədyönlü və konkret strateji hədəfə doğru hesablanıb. Genişmiqyaslı yeniliklər respublikada yüksək dayanıqlı və inklüziv iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələnməsi, özəl investisiyaların və təşəbbüslərin yüksək səviyyədə təşviqi üçün əlverişli zəmin yaradıb.**



Azərbaycanın sosial-iqtisadi sahələrdə əldə etdiyi uğurlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın nüfuzlu təşkilatlarının, aparıcı iqtisadi-maliyyə institutlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən mərkəzlərin diqqətindən də kənarda qalmır və yüksək qiymətləndirilir.

Beynəlxalq reytinq agentliklərinin proqnozları təsdiqləyir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olur və bütün bunlar dövlətimizin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən, Azərbaycanın uğurlu gələcəyindən xəbər verir.

Fikrimizin təsdiqi üçün diqqəti Birləşmiş Millətlər Təşkilatının (BMT) rəqəmsal və davamlı ticarətin asanlaşdırılması üzrə qlobal sorğusuna əsasən, Azərbaycanın mühüm irəliləyiş əldə edərək regionda lider mövqedə qərarlaşdığı faktına yönəltmək istərdik.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən BMT-nin sorğusunun nəticəsinə əsasən, bildirilib ki, respublikamız Qazaxıstan (76,34 faiz), Belarus (72,04 faiz), Ukrayna (60,22 faiz), Özbəkistan (84,95 faiz), Moldova (62,37 faiz), Ermənistan (75,27 faiz) və digər dövlətləri qabaqlayaraq, region ölkələri arasında lider olub. Bundan əlavə, Azərbaycan bir sıra Avropa ölkələrini, o cümlədən Finlandiya (87,10 faiz), Fransa (79,57 faiz), İtaliya (84,95 faiz), Latviya (75,27 faiz), Litva (81,72 faiz), Portuqaliya (84,95 faiz) və Norveçi (84,95 faiz) də üstələyib.

Son illərdə Azərbaycanın "şəffaflıq" və "kənd təsərrüfatı sektorunda ticarətin asanlaşdırılması" ilə bağlı istiqamətlərdə həyata keçirdiyi layihələr müsbət nəticələrlə müşahidə olunub. "Kağızsız ticarət" və "İnstitusional mexanizmlər və əməkdaşlıq" kateqoriyalarında da nəzərəçarpacaq dərəcədə irəliləyiş əldə edilib. Bu kateqoriyalar üzrə respublikamızın indeksi müvafiq olaraq 85,2 faizdən 88,9 faizə və 77,8 faizdən 88,9 faizə yüksəlib.

Azərbaycanın sözügedən sorğudakı nəticələri ötən il dərc edilən "Azərbaycanın transsərhəd kağızsız ticarətə hazırlığının qiymətləndirilməsi" adlı ölkə hesabatına əsaslanır. Bu hesabat Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyanın (ESCAP) ekspertlərinin birbaşa nəzarəti ilə BMT-nin ESCAP (ESCAP-ın Şimali və Mərkəzi Asiya üzrə Subregional şöbəsi) məsləhətçilər qrupu tərəfindən hazırlanıb.

Hesabat dünyanın 160-dan çox ölkəsini və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) Ticarətin Asanlaşdırılması Sazişi (TFA) ilə bağlı 60 tədbiri, eləcə də kağızsız və ya elektron ticarət sahəsində Asiya-Sakit Okean regionunda Transsərhəd Kağızsız Ticarət Prosedurlarının Asanlaşdırılması üzrə Çərçivə Sazişi kimi qabaqcıl regional, həmçinin qlobal təşəbbüsləri əhatə edir.

Qeyd edək ki, sorğu ilə bağlı məlumatların iştirakçı qurumlarla əlaqələndirilməsi və konsolidasiyası Dövlət Gömrük Komitəsi (DGK) və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, eləcə də aidiyyəti dövlət qurumlarının və özəl sektorun dəstəyi ilə həyata keçirilib.

BMT-nin Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiyasında (ESCAP) Azərbaycan üzrə milli əlaqələndiriciləri Dövlət Gömrük Komitəsi sədrinin müavini Natiq Şirinov və İİTKM-in icraçı direktoru Vüsal Qasımlıdır. Onlar milli səviyyədə koordinasiya, informasiya mübadiləsi və birgə planlaşdırmanı həyata keçirirlər.

ESCAP-ın Azərbaycan üzrə məsləhətçilər qrupu bildirir ki, Azərbaycan rəqəmsallaşma və effektiv idarəetmə metodları vasitəsilə ticarət prosedurlarının genişləndirilməsi və asanlaşdırılması kimi müasir çağırışlara sadiqliyini nümayiş etdirir: "Azərbaycanın bu sahədə əldə etdiyi uğurlar dünya miqyasında davamlı və səmərəli ticarət təcrübələri üçün motivasiya mənbəyi rolunu oynayır və hesabatda vurğulanan tövsiyələr nəzərə alınarsa, şübhəsiz ki, növbəti qlobal sorğuda ən yüksək nəticələrə nail olunacaq".

Qeyd edək ki, aparılan islahatlar nəticəsində Azərbaycan son 8 ildə mühüm nailiyyətlər əldə edib. Belə ki, ölkənin ticarət prosedurlarının asanlaşdırılması üzrə ümumi balı 47,31 faizdən 87,10 faizə yüksəlib ki, bu da əvvəlki ildəki 84,95 faizlik göstərici ilə müqayisədə 2,15 faizlik artım deməkdir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Azərbaycanın rəqəmsal və davamlı ticarətin asanlaşdırılması üzrə regionda lider mövqedə qərarlaşması respublikamızda ötən illər ərzində bu sahədə geniş islahatlar həyata keçirilməsi, "Rəqəmsal Ticarət Qovşağı" portalının yaradılması ilə bağlı olub. Şübhəsiz ki, bütün bunlar ölkəmizin xarici ticarət əməliyyatlarının genişləndirilməsinə müsbət təsir göstərib. Azərbaycan, həmçinin 2021-ci il fevralın 20-də qüvvəyə minən "Asiya-Sakit Okeanında Sərhədlərarası Kağız Ticarətin Asanlaşdırılması Çərçivə Sazişi"ni imzalayan ilk dövlətlərdən biri olub və bu sahədə reallaşdırılan digər islahatlar qlobal müstəvidə respublikamızın mövqeyinin yaxşılaşdırılmasında mühüm rol oynayıb.

BMT-nin hesabatında Azərbaycanın rəqəmsal və davamlı ticarətin asanlaşdırılması istiqamətində gördüyü işlərin yüksək qiymətləndirilməsində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalı və "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən gerçəkləşdirilən innovativ layihələrin də xüsusi önəm daşıdığı vurğulanıb.

Hesabatda ölkədə cari vəziyyətin qiymətləndirilməsinin həyata keçirilməsi ilə yanaşı, transsərhəd kağızsız ticarətin yaxşılaşdırılması məqsədilə gələcək üçün tövsiyələr də təqdim olunub.

Azərbaycan ölkəmizin ərazi bütövlüyünün bərpasından sonra Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən indiki strateji dövrdə dövlətimizin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilən bölgələrə tarixi qayıdış və əbədi məskunlaşmanın gerçəkləşdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

## SOCAR ilə "Cisco Systems Inc"in İKT anlaşması



**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə dünyanın aparıcı şirkətlərindən biri olan "Cisco Systems Inc" arasında rəqəmsal transformasiya təşəbbüsləri, yeni texnologiyaların tətbiq edilməsi məqsədilə şəbəkə həlləri, habelə proqram təminatları sahəsində anlaşma memorandumu imzalanıb.**

SOCAR-dan verilən məlumatda daha sonra bildirilib ki, memorandum bu şirkətlə "Cisco Systems Inc" arasında texnoloji infrastruktur, təhlükəsiz rəqəmsal transformasiya, dayanıqlı İT, habelə rahat istifadəçi təcrübəsi yaratmaq istiqamətlərində əməkdaşlıq imkanlarını nəzərdə tutur.

SOCAR-ın korporativ strategiyasında dəyər zənciri üzrə fəaliyyət istiqamətlərinin rəqəmsallaşdırılması, o cümlədən ən son texnoloji və innovasiya həllərinin tətbiqi ilə əməliyyat səmərəliliyinin artırılması prioritet istiqamətlər kimi müəyyənləşdirilib. Bu xüsusda, texnologiya və innovasiya sahəsində dünya liderləri arasında olan "Cisco Systems Inc" ilə əməkdaşlıq SOCAR-ın uzunmüddətli strateji hədəflərinə töhfə verməklə yanaşı, rəqəmsal transformasiya sahəsində perspektiv imkanları artırmağa və gələcəyin iş yerini yaratmağa əlverişli zəmin yaradacaq.

## BTC "Kaztransoil"i dünyaya qovuşdurur

**Qazaxıstanın magistral neft kəməri üzrə milli operatoru olan "Kaztransoil" şirkəti bu ilin ikinci rübündə Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəməri istiqamətində neft tədarükünü 347,1 min tona çatdırıb.**



Məlumatda deyilir ki, 2023-cü ilin ikinci rübündə "Kaztransoil" Xəzər dənizinin Qazaxıstan sektorunda yerləşən "Tengiz" yatağından BTC neft kəməri istiqamətində Aktau limanında ixrac üçün 347,1 min ton neft göndərib. Birinci rübdə həmin göstərici 19,2 min ton təşkil edib.

Xatırladaq ki, 2022-ci ildə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Transxəzər dəhlizi ilə neft nəqlinin artırılması barədə göstəriş verib. Bu göstərişə uyğun olaraq, "KazMunayQaz" və Azərbaycan Dövlət Neft Şirkəti arasında "Tengiz" yatağından hasil edilən, Bakı–Tbilisi–Ceyhan kəməri istiqamətində ildə 1,5 milyon ton neftin nəqlini nəzərdə tutan saziş imzalanıb.

***"Xalq qəzeti"***

# Qara torpağın üzağardan vədəsidir

## Yazlıq əkinlər bugünlərdə daha çox qulluq tələb edir

**Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması, daxili bazarın mühüm növ kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, eləcə də ixrac potensialının artırılması məqsədilə əkin sahələri ilbəil genişlənir. Torpağa düşən hər bir dən isə cücərib boy ataraq əkin-biçin adamının üzünü ağardır. Məhsulunu piştaxtaya, dükün-bazara yollayan fermer əməyinin nəticəsindən, ölkədə məhsul bolluğuna verdiyi töhfədən məmnun qalır. Dövlətin aqrar sektorun inkişafına verdiyi dəstək də sahibkarın karına gəlir, onu torpağa möhkəm bağlayır. Bu da son nəticədə ölkədə kənd təsərrüfatının ümumi məhsulunun artmasına səbəb olur. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 ilə yaxın bir dövr ərzində ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı iki dəfəyə yaxın artıb.**

Məhsul bolluğuna nail olunması isə yazlıq bitkilərin aqrotexniki qaydada aparılmasından çox asılıdır. Bu məqsədlə ilin əvvəlindən başlayaraq, sahələrdə kifayət qədər dənli və dənli paxlalı bitkilər, dən üçün günəbaxan, pambıq, şəkər çuğunduru, tütün, kartof, eləcə də tərəvəz və bostan bitkiləri əkilib. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar–may aylarında ölkə üzrə cari ilin məhsulu üçün 341 min 816,1 hektar sahədə yazlıq səpin aparılıb.

Cari ilin 5 ayında təsərrüfatlarda 29 min 333 hektar sahədə dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) əkilib. Hesabat dövründə dənli və dənli paxlalı bitkilərdən sayılan buğda və vələmirin əkinində nisbətən azalma baş versə də, çəltik əkinində əhəmiyyətli artım qeydə alınıb. Belə ki, əkin mövümündə çəltikçiliklə məşğul olan təsərrüfat sahibləri 2 min 325,9 hektarda sahədə şitil basdırıblar ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 182,8 hektar və ya 8,5 faiz çoxdur. Bu isə son illər ölkədə qədim əkin növünə marağın getdikcə artması ilə izah olunmalıdır. Bundan əlavə, ilin ötən 5 ayında ölkə üzrə 4 min 534,8 hektar şəkər çuğunduru, 93 min 961,1 hektar pambıq, 2 min 637,8 hektar tütün, 48 min 990,3 hektar kartof, 59 min 321,6 hektar tərəvəz və 16 min 906,7 hektar bostan bitkiləri əkilib.

Yazlıq bitkilərin bölgələr üzrə əkininə gəldikdə isə, bu sahədə ən böyük artım Lənkəran–Astara iqtisadi rayonunda qeydə alınıb. Belə ki, yanvar-may aylarında adıçəkilən iqtisadi rayon üzrə 32 min 331,9 hektar sahədə əkin aparılıb ki, bu da əvvəlki ilin ilk dörd ayı ilə müqayisədə 704,7 hektar və ya 2,2 faiz artım deməkdir. Hesabat dövründə Qazax-Tovuz və Şəki-Zaqatala iqtisadi rayonlarında da yazlıq bitkilərin əkinində artım baş verib.

Cari ilin yanvar–may aylarında dənli və dənli paxlalı bitkilərin əkini üzrə ən yüksək artım Qazax–Tovuz iqtisadi rayonunda qeydə alınıb. Belə ki, hesabat dövründə adıçəkilən iqtisadi rayon üzrə 4 min 110,9 hektar sahədə əkin aparılıb ki, bu da 2022-ci ilin eyni dövründəkindən 2 min 684,5 hektar və ya 2, 9 dəfə çoxdur. Bununla yanaşı, ilin 5 ayı ərzində Gəncə–Daşkəsən, Şirvan–Salyan, Lənkəran–Astara, Mərkəzi Aran və Qarabağ iqtisadi rayonlarında da dənli və dənli paxlalı bitkilərin əkinində artım müşahidə olunub.

Hesabat dövründə ölkənin ərzaq təhlükəsizliyinin təminatında mühüm rol oynayan buğda istehsalının artırılması üçün 3 min 518,6 hektar sahədə səpin aparılıb. Bu, əvvəlki ilin müvafiq dövründəkindən az olsa da, sahələrdə aparılmış aqrotexnuki tədbirlər hesabına hektarın məhsuldarlığında artım hiss olunur. Cari ilin 5 ayında buğda əkini üzrə ən yüksək artım Gəncə–Daşkəsən iqtisadi rayonunda qeydə alınıb. Belə ki, hesabat dövründə adıçəkilən iqtisadi rayon üzrə 912,6 hektar sahədə buğda əkilib ki, bu da əvvəlki ilin müvafiq dövründəkindən 21 dəfə çoxdur. Bununla yanaşı, hesabat dövründə Naxçıvan Muxtar Respublikasında, eləcə də Qarabağ, Qazax–Tovuz və Dağlıq Şirvan iqtisadi rayonlarında da buğda əkinində artım baş verib.



Qarğıdalı əkininə gəldikdə isə, ilin ötən dövründə ölkə üzrə bu sahədə müəyyən azalma müşahidə olunub. Bununla belə, Mil–Muğan, Şərqi Zəngəzur, Gəncə-Daşkəsən, Şirvan-Salyan, Lənkəran-Astara və Şəki–Zaqatala iqtisadi rayonlarında əkin sahələri əvvəlki ilin eyni dövrü ilə müqayisədə xeyli artırılıb.

2023-cü ilin yanvar-may aylarında ölkədə şəkər çuğundurunun əkinində isə ən yüksək artım Dağlıq Şirvan iqtisadi rayonunda (94,7 faiz) qeydə alınıb. Bununla yanaşı, ilin 5 ayında Gəncə–Daşkəsən, Qazax–Tovuz və Quba–Xaçmaz iqtisadi rayonlarında da şəkər çuğundurunun əkinində artım dinamikası yüksək olub.

Bu ilin ötən dövründə Azərbaycanda tütün əkinində də əhəmiyyətli artım qeydə alınıb. Bu sahədə ən yüksək artım isə Qazax–Tovuz iqtisadi rayonunda baş verib. Belə ki, hesabat dövründə adıçəkilən iqtisadi rayon üzrə 110 hektar sahədə tütün əkilib ki, bu da əvvəlki ilin 5 ayı ilə müqayisədə 42 hektar və ya 61,8 faiz çoxdur. Ölkə üzrə ən çox tütün isə Şəki-Zaqatala iqtisadi rayonunda (2 min 443,8 hektar) əkilib. Bu isə 2022-ci ilin eyni dövrü ilə müqayisədə 397,1 hektar və ya 19,4 faiz artıqdır.

Cari ilin yanvar–may aylarında ölkə üzrə kartof, tərəvəz və bostan bitkilərinin əkinində azalma qeydə alınsa da, Şərqi–Zəngəzur iqtisadi rayonunda adıçəkilən kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə maraq yüksək olub. Bu da işğaldan azad olunmuş ərazilərimizdə həyatın tədricən əvvəlki məcrasına qayıtması, minalardan və partlamamış hərbi sursatlardan təmizlənmiş torpaqların əkin dövriyyəsinə cəlb edilməsi ilə bağlıdır. Bütövlükdə isə, hesabat dövründə Şərqi-Zəngəzur iqtisadi rayonunda 129, 8 hektar sahədə kartof əkilib ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 3,5 dəfə çoxdur. Bununla yanaşı, ilin 5 ayı ərzində adıçəkilən iqtisadi rayon üzrə bostan məhsulları və tərəvəz əkinində də müvafiq olaraq 71,7 faiz və 69, 6 faiz artım qeydə alınıb. Hesabat dövründə Qarabağ, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax–Tovuz, Quba–Xaçmaz və Mərkəzi Aran iqtisadi rayonlarında isə tərəvəz və bostan məhsullarının əkin sahələri xeyli genişləndirilib.

...Hazırda ölkədə bəzi mövsümi kənd təsərrüfatı məhsullarının yığımı sürətlə davam etdirilir. Artıq aran bölgələrində taxıl biçini tədricən sona yaxınlaşır. Yaxın vaxtlarda isə dağ təsərrüfatlarında biçinə start veriləcək. Yeri gəlmişkən, mövsüm ərzində havaların nisbətən yağmurlu keçməsi sahələrdə bol məhsulun yetişməsinə səbəb olub. Bunun nəticəsidir ki, indi dükan-bazarlarda kartof, tərəvəz və bostan məhsullarının bolluğu müşahidə olunur. Bundan isə həm fermerlər, həm də alıcılar razıdırlar.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Tacikistan səfiri Vətənə qayıdır

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Tacikistanın ölkəmizdəki səfiri Rustam Soli ilə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.**



Nazir Azərbaycan və Tacikistan, həmçinin xalqlarımız arasında mövcud tarixi və mədəni bağlılıqların dərin köklərinin olduğunu, onları çoxəsrlik ənənələrə əsaslanan mehriban dostluq, sıx faydalı əməkdaşlıq və qarşılıqlı fəaliyyət telləri bağladığını diqqətə çatdırıb.

Səfir Soli diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

# Qərbi Azərbaycan İcması ATƏT-in tədbirində

**Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədr müavini, Milli Məclisin deputatı Ramil Həsən ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarı İnstitutunun təsis edilməsinin 30 illiyi münasibətilə iyulun 7-də Avstriyanın Vyana şəhərində keçirilmiş yüksək səviyyəli tədbirdə İcmanın adından iştirak edib.**



ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmanı, Baş katibi Helqa Şmid, Milli Azlıqlar üzrə Ali Komissarı Kayrat Abdraxmanov, iştirakçı dövlətlərinin nümayəndələrinin iştirak etdiyi tədbirdə ATƏT məkanında milli azlıqların hüquqlarının qorunması sahəsində vəziyyət, bu sahədə iştirakçı dövlətlərin öz öhdəliklərini yerinə yetirməsi və milli azlıqların hüquqlarının qorunması ilə sülh və təhlükəsizlik arasında əlaqə kimi məsələlər müzakirə olunub.

Ermənistandan azərbaycanlıların qovulması barədə məlumat verən Qərbi Azərbaycan İcmasının sədr müavini Ermənistanın hərəkətlərinin beynəlxalq insan hüquqlarının digər aspektləri ilə yanaşı, milli azlıqların hüquqları üzrə beynəlxalq normalara, o cümlədən ATƏT-in bu sahədəki müvafiq sənədlərinə zidd olduğunu vurğulayıb.

Qeyd edək ki, bu, Qərbi Azərbaycan İcmasının beynəlxalq təşkilatın tədbirində rəsmi təmsil olunduğu ilk hal idi.

***"Xalq qəzeti"***

# Diaspor nümayəndələri yenidən Şuşada

**Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 21-ci və Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılmasının 5-ci ildönümü münasibətilə tətillərini Azərbaycanda keçirməyə üstünlük verən diaspor nümayəndələrinin mədəniyyət paytaxtımız Şuşaya səfəri baş tutub.**

"Dəmir yumruğun gücü ilə Şuşadayıq" layihəsi çərçivəsində doqquzuncu dəfə gerçəkləşən səfərdə 24 ölkədən gələn 100-dən çox diaspor nümayəndəsi iştirak edib.




*Sosial xəbərlər*

# DOST-un saytı dostunuz olacaq

**DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin saytı istifadəyə verilib. Saytda mərkəzə qəbul və müraciət qaydaları, xidmət istiqamətləri, könüllülük fəaliyyəti, təlimçilər, layihələr və digər məsələlərlə bağlı məlumatlar əksini tapıb.**



Qeyd edək ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan, 2021-ci ilin oktyabrında açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi Cənubi Qafqazda ilk və ən böyük inklüziv məkandır.

Eyni vaxtda 140-dan çox benefisiarın təlim almaq imkanının olduğu mərkəzdə şəhid ailələlərinin üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələr və əlilliyi olan şəxslərin yaradıcılıq potensialının inkişafına dəstək göstərilir.

Burada onların bacarıqlarının inkişafı və sosial-psixoloji dəstək məqsədi ilə ümumilikdə 14 istiqamət üzrə təlimlər keçirilir. Hazırda həssas qruplara aid 200-dək benefisiar müxtəlif fəaliyyət istiqamətləri üzrə təlimlərdə iştirak edir.

# "Baxıcı–dayə xidmətinin təşkili"

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Dəstək Mərkəzi "Baxıcı–dayə xidmətinin təşkili" layihəsinə başlayıb.**



Ahıl və əlilliyi olan şəxslərə sosial xidmətlər göstərən əməkdaşlar peşəkar bilik və bacarıqlarının artırılması üçün bu layihə üzrə təlimlərə cəlb olunacaq. Təlimlər iyul ayı ərzində davam edəcək.

Layihə ahıllar və əlilliyi olan şəxslərə keyfiyyətli sosial xidmətlər göstərilməsinə, eyni zamanda, əmək bazarında bu sahə üzrə ixtisaslı kadrların hazırlanmasına dəstək məqsədi daşıyır.

***Zərifə HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

# FHN-dən xəbərdarlıq!

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, iyulun 8-i günün ikinci yarısından iyulun 10-u axşamadək bəzi şimal və qərb rayonlarında fasilələrlə yağış yağacağı, şimşək çaxacağı, yağıntıların bir sıra ərazilərdə leysan xarakterli intensiv olacağı, bəzi çaylardan qısamüddətli sel və daşqın keçəcəyi, güclü külək əsəcəyi proqnozlaşdırılır. Eyni zamanda, iyulun 10-u səhərdən 11-i axşamadək Bakı şəhəri və Abşeron yarımadasında da güclü külək əsəcəyi gözlənilir.**

Fövqəladə Hallar Nazirliyinin (FHN) mətbuat xidmətindən bildirilib ki, qeyd olunanlarla bağlı nazirlik göstərilən ərazilərdə yaşayan və istirahət edən vətəndaşlara müraciət edərək, gözlənilən hava şəraiti ilə əlaqədar müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırıb:

"Belə ki, yağıntılarla əlaqədar bəzi çaylarda mümkün sel və daşqından qorunmaq üçün sel və daşqın təhlükəli ərazilərdən uzaq durmaq, bu təhlükə ilə üzləşdikdə dərhal yaxınlıqdakı yüksəkliyə qalxmaq tövsiyə olunur. Bundan əlavə, güclü külək zamanı yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Həmçinin güclü küləyin baş verən yanğınların söndürülməsi ilə əlaqədar yaratdığı çətinlikləri nəzərə alaraq, küləkli hava şəraitində yanğın təhlükəsizliyi qaydalarına xüsusilə ciddi riayət edilməlidir.

Yay fəslində insanların istirahət üçün çimərliklərə üz tutduğunu nəzərə alaraq xatırladırıq ki, güclü küləkli havada dənizə girmək təhlükəlidir.

Həmçinin ildırımla bağlı təhlükələrdən qorunmaq üçün elektrik cihazlarını şəbəkədən ayırmaq, telefonla (sabit şəbəkə, mobil, taksofon və s.) danışmamaq, açıq havada olarkən elektrik xətti, ildırım ötürücüsü, navalça və antenaya yaxınlaşmamaq, hündür ağacların altında daldalanmamaq, avtomobildə olduqda isə hərəkəti dayandıraraq şüşələri qaldırıb ildırımın bitməsini gözləmək tövsiyə edilir.

Unutmayın: Qaydalara biganəlik – həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!", – deyə müraciətdə bildirilib.

***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 222** **Bakı şəhəri, 7 iyul 2023-cü il**

***"Ərazi, müəssisə və təşkilatların radioloji-gigiyenik pasportlarının forması və tərtib edilməsi Qaydası"nın və "Fərdi şüalanma dozalarının uçotu və onlara nəzarət Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 25 avqust tarixli 134 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ərazi, müəssisə və təşkilatların radioloji-gigiyenik pasportlarının forması və tərtib edilməsi Qaydası"nın və "Fərdi şüalanma dozalarının uçotu və onlara nəzarət Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 25 avqust tarixli 134 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 529; 2006, № 9, maddə 822; 2007, № 3, maddə 302; 2021, № 10, maddə 1199) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Ərazi, müəssisə və təşkilatların radioloji-gigiyenik pasportlarının forması və tərtib edilməsi Qaydası" üzrə:

1.1. 3-cü hissədə "dövlət sanitariya nəzarəti orqanı və" sözləri "Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qaydaya 1 nömrəli əlavə - "İonlaşdırıcı şüa mənbələrindən istifadə edən müəssisə və təşkilatların radioloji-gigiyenik Pasportu"nun 6-cı hissəsində "Dövlət sanitariya nəzarəti orqanı və" sözləri "Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin və həmin hissədən birinci halda "(imza)", "(tarix)" sözləri və "M.Y." akronimi çıxarılsın;

1.3. həmin Qaydaya 2 nömrəli əlavə - "Ərazinin radioloji-gigiyenik Pasportu"nun 14-cü hissəsinin birinci sətrində "Dövlət sanitariya nəzarəti orqanı və" sözləri "Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin və həmin hissədən birinci halda "(imza)", "(tarix)" sözləri və "M.Y." akronimi çıxarılsın.

2. Həmin Qərarla təsdiq edilmiş "Fərdi şüalanma dozalarının uçotu və onlara nəzarət Qaydası" üzrə:

2.1. 1.3-cü bənd ləğv edilsin;

2.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

2. "Müəssisə və təşkilatlar tərəfindən ilin sonunda (növbəti ilin yanvar ayının 15-dək) ionlaşdırıcı şüa mənbələri ilə işləyənlərin fərdi şüalanma dozalarının uçot vərəqəsi (bundan sonra – uçot vərəqəsi) Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə (bundan sonra – Nazirlik) təqdim edilməlidir (1 nömrəli əlavə)";

2.3. 3-cü hissədə "idarədə" sözü "müəssisə və təşkilatlarda" sözləri ilə əvəz edilsin;

2.4. 5-ci hissənin ikinci abzası ləğv edilsin;

2.5. 6-cı hissə üzrə:

2.5.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Fərdi şüalanma dozaları uçot vərəqəsində qeyd edilir. Uçot vərəqəsi işçi işdən azad edildikdən sonra 50 il müddətində saxlanılmalıdır. İşçinin radioaktiv maddələr və digər ionlaşdırıcı şüa mənbələrinin tətbiqi ilə əlaqədar işlər aparılan başqa müəssisəyə və ya təşkilata keçməsi hallarında onun uçot vərəqəsinin surəti yeni iş yerinə verilməli, əsli isə əvvəlki iş yerində saxlanılmalıdır";

2.5.2. ikinci abzasa "şəxslərin" sözündən sonra "ezamiyyət müddətində aldığı" sözləri əlavə edilsin və həmin abzasda "məlumatları" sözü "məlumat" sözü ilə əvəz edilsin;

2.6. 7-ci hissə üzrə:

2.6.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Fərdi şüalanma dozalarının normadan artıq olması müəyyən edilən bütün hallarda radiasiya təhlükəsizliyi xidməti və ya radiasiya nəzarətinə cavabdeh şəxs dərhal bu barədə müəssisənin (və ya təşkilatın) rəhbərliyinə, müəssisənin (və ya təşkilatın) rəhbərliyi isə öz növbəsində Nazirliyə məlumat verir";

2.6.2. ikinci abzasda "Ərazi üzrə sanitariya-epidemioloji xidmət müəssisəsi idarənin müdiriyyəti" sözləri "Nazirlik müəssisənin (və ya təşkilatın) rəhbərliyi" sözləri ilə, "fərdi dozaların" sözləri "fərdi şüalanma dozalarının" sözləri ilə əvəz edilsin;

2.7. 8-ci hissədə "Yol verilən şüalanma dozası həddindən artıq doza almış şəxslər" sözləri "Müəyyən olunmuş normadan artıq şüalanma dozasına məruz qalmış şəxslər" sözləri ilə əvəz edilsin;

2.8. 10-cu hissə aşağıdakı redaksiyada verilsin:

"10. Əhalinin və işçilərin radiasiya təhlükəsizliyini təmin etmək məqsədilə təbii radiasiya fonu və ya texnogen təsirlə dəyişilmiş radiasiya fonu yüksək olan yerlərdə radiasiya nəzarəti həmin ərazidə aparılan radioloji ölçmələrin nəticələrinə görə yerinə yetirilən qiymətləndirmə əsasında müvafiq olaraq Nazirlik və müəssisənin (və ya təşkilatın) rəhbərliyi tərəfindən aparılır";

2.9. həmin Qaydaya 1 nömrəli əlavə - "İonlaşdırıcı şüa mənbələri ilə işləyənlərin fərdi şüalanma dozalarının uçot vərəqəsi" üzrə:

2.9.1. 1-ci hissədə "İdarə, müəssisə" sözləri "Müəssisə (və ya təşkilat)" sözləri ilə əvəz edilsin;

2.9.2. 7-ci hissədə "idarədə" sözü "müəssisədə (və ya təşkilatda)" sözləri ilə əvəz edilsin;

2.9.3. aşağıdakı məzmunda 11-ci hissə əlavə edilsin:

11. Şüalanma dozası barədə məlumat

| Ay | Dozimetrin yerləşdiyi sahə | İllər üzrə dozalar, **mZv (millizivert) mRBE (millirengenin bioloji ekvivalenti)** | | | | | Qeyd |
|---|---|---|---|---|---|---|---|
| | | ____-il | il ____- | ____-il | ____-il | ____- il | |
| 1 | 2 | **3** | **4** | **5** | **6** | **7** | **8** |
| I | əllər<br>sinə<br>çanaq | | | | | | |
| II | əllər<br>sinə<br>çanaq | | | | | | |
| III | əllər<br>sinə<br>çanaq | | | | | | |
| I rüb | | | | | | | |
| IV | əllər<br>sinə<br>çanaq | | | | | | |
| V | əllər<br>sinə<br>çanaq | | | | | | |
| VI | əllər<br>sinə<br>çanaq | | | | | | |
| II rüb | | | | | | | |
| VII | əllər<br>sinə<br>çanaq | | | | | | |
| VIII | əllər<br>sinə<br>çanaq | | | | | | |
| IX | əllər<br>sinə<br>çanaq | | | | | | |
| III rüb | | | | | | | |
| X | əllər<br>sinə<br>çanaq | | | | | | |
| XI | əllər<br>sinə<br>çanaq | | | | | | |
| XII | əllər<br>sinə<br>çanaq | | | | | | |
| IV rüb | | | | | | | |
| İl ərzində | | | | | | | |

2.10. həmin Qaydaya 2 nömrəli əlavə - "Şüalanma dozası barədə məlumat" ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycançılıq və Cənubi Azərbaycan tarixi

**AMEA Şərqşünaslıq İnstitutu Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Səməd Bayramzadə rəhbərlik etdiyi şöbədə Cənubi Azərbaycan tarixinin dərindən öyrənilməsi istiqamətində görülən işlər, aparılan tədqiqatlara dair suallarımızı cavablandırdı.**

***– Səməd müəllim, müstəqil Azərbaycan dövlətinin milli ideologiyası olan azərbaycançılıq məfkurəsinin dünyada yaşayan soydaşlarımızın mənəvi birliyinə və ictimai-mədəni həmrəyliyinə nail olmaqda rolu misilsizdir...***

–Ölkəmiz müstəqillik əldə etdikdən sonra dövlətin suverenlik prinsipləri üzərində sağlam siyasi, iqtisadi, inzibati, mədəni və s. təsisatların yaranması, cəmiyyətin sağlam və doğru təməllər üzərində qurulması və inkişafı üçün stimullaşdırıcı, eyni zamanda, birləşdirici bir ideologiyaya daha çox ehtiyac duyuldu. Həmin zərurətdən başlanğıcını maarifçilik və demokratik hərəkatlardan götürən azərbaycançılıq baxışları formalaşıb dövlətçilik dünyagörüşünə, kütlələrin aparıcı ideologiyasına çevrildi.

Bu gün Azərbaycan Respublikasında azərbaycançılığın milli bir ideologiya kimi formalaşmasını, onun dünya azərbaycanlıları arasında təsir gücünü araşdırmaq üçün Cənubi Azərbaycan tarixinin tədqiqinə və öyrənilməsinə ciddi ehtiyac var. Belə ki, İran İslam Respublikasının bugünkü inzibati-ərazi bölgüsünə uyğun olaraq Şərqi və Qərbi Azərbaycan, Ərdəbil, Zəncan, Qəzvin, Həmədan kimi ostanlarında (əyalətlərində), eləcə də ölkənin paytaxtı Tehran şəhərində və ətrafında (Kərəc şəhəri də daxil olmaqla), Savədə, Xorasan əyalətində, cənub bölgələrində, həmçinin bir sıra digər yaşayış məntəqələrində 32–35 milyon Azərbaycan türkü (azərbaycanlı) məskunlaşmışdır.

Onlar ölkənin müvafiq sahələr üzrə idarəçiliyində, onun ərazi bütövlüyünün və sərhədlərinin qorunmasında fəal iştirak etməklə yanaşı, eyni zamanda, ölkənin daxili və xarici siyasətinə, o cümlədən Azərbaycan Respublikası ilə iqtisadi-ticarət, ədəbi-mədəni və turizm əlaqələrinin inkişafına ciddi təsir göstərmək gücünə malikdirlər. Bu əlaqələri tədqiq etmək və azərbaycançılığın bu əlaqələr fonunda inkişaf etdirərək milli bir ideologiyaya çevrilməsi məsələsi Azərbaycan tarixinin az öyrənilmiş cənub qolunun tədqiqini bizim üçün zəruri edir.

***– Talenin amansızlığı ilə Azərbaycan 2 hissəyə bölünənədək otaylı-butaylı tariximiz bütöv olub və bir yerdə öyrənilir. İndi Cənub tariximizi ayrıca öyrənməyə məhkumuq...***

– XIX əsrin əvvəllərində İran və Rusiya arasında baş vermiş 1804-1813 və 1826-1828-ci illər müharibələri Azərbaycanın iki yerə parçalanması ilə nəticələndi. Eyni tarixi köklərə malik, tarixən eyni ərazidə yaşayan, vahid dildə danışan, eyni mədəniyyətə və həyat tərzinə malik xalq iki hissəyə ayrılmış oldu. Ruslar şimalda işğal etdikləri xanlıqları Azərbaycan adlı əyalət adı altında birləşdirərək özlərinin bu işğallarına bəraət qazandırdılar. Bu işğal, eyni zamanda, özünüqoruma instinkti altında Azərbaycanın şimalında milli oyanış hərəkatı yaratdı, dövlətçiliyin bərpasına təkan verdi, eyni zamanda, azərbaycançılıq məfkurəsinə meydan açdı.

Qacarlar da cənubda "Azərbaycan" adlı əyalətlərə xüsusi diqqət yetirməyə başladılar, azərbaycanlıların iqtisadi və hərbi qüdrətlərinə, birliklərinə söykəndilər, onlara daha çox etibar etdilər. Bununla belə, Qacarların hakimiyyəti altında yaşayan Azərbaycan türkləri onlara münasibətdə milli məhdudiyyəti, milli ayrı-seçkiliyi hiss etməsələr də, ağır istismara, dilənçi həyat tərzinə düçar oldular.

"Gülüstan"dan, "Türkmənçay"dan üzü bu yana Azərbaycan xalqı neçə dəfələrlə ayağa qalxdı, milli mənsubiyyətini, dilini, mədəniyyətini əzmək istəyənlərə öz əzmkarlığını nümayiş etdirdi. Cənubi Azərbaycanda Səttar xanın, Bağır xanın, Şeyx Məhəmməd Xiyabaninin başçılığı altında milli-azadlıq, milli-demokratik ruhlu inqilablar baş verdi. Bu hərəkatlar İran irticasının və onun xarici himayədarlarının əli ilə yatırılsa da əslində, bu, Azərbaycan və azərbaycançılıq uğrunda ideoloji mübarizə idi.

1925–1979-cu illərdə Rza şah və oğlu Məhəmməd Rza şahın anti-Azərbaycan siyasəti də son nəticədə azərbaycançılığın güclənməsinə böyük təsir göstərdi. Belə ki, şahın və onun xarici himayədarlarının gözləntilərinin əksinə olaraq, bu siyasətə qarşı azərbaycanlılar ayağa qalxdılar. 12 dekabr 1945-ci il tarixində Cənubi Azərbaycanda Milli Hökumət quruldu. 6 yanvar 1946-cı ildə bu diyarda Azərbaycan dili rəsmi dövlət dili elan edildi, bu əsasda da təhsilin, mədəniyyət və incəsənətin inkişafı üçün güclü zəmin yaradılmış oldu.

Azərbaycan Milli Hökuməti İrandakı azərbaycanlılara milli mənlik, milli kimlik hisslərini aşıladı və onların milli şüurunu formalaşdırdı. Milli hökumət, ilk olaraq, İran kimi çoxmillətli bir ölkədə milli-mədəni, hətta siyasi muxtariyyət əldə etmək, federativ dövlət quruluşuna nail olmaq imkanını təsdiqlədi. Bu hökumətin həyata keçirdiyi birillik islahat tədbirləri milli dövlətçiliyə güclü inam yaratdı, onun mümkünlüyünü, qurulması yollarını, formasını göstərdi, azərbaycançılığı çoxmillətli İran miqyasında yaşayan digər millət və xalqlar üçün bir nümunə etdi.

***– Rəhbərlik etdiyiniz Cənubi Azərbaycan şöbəsinin yaradılması ideyası hansı zərurətdən yaranıb?***

– 1978–1979-cu illər İran inqilabı Şimali Azərbaycanda azərbaycançılıq ideyasının inkişafına təsirini göstərən amillərdən oldu, inqilabın qələbəsindən sonra İranda yaşayan millətlər və xalqlar bəzi nisbi azadlıqlar əldə etdilər. Azərbaycan dilində kitablar, qəzet-jurnallar çap edildi, şəxsi təşəbbüslər əsasında Azərbaycan dilini öyrədən kurslar açıldı, bir sıra mədəniyyət ocaqları, o cümlədən Tehran və Təbrizdə ayrı-ayrılıqda Azərbaycan Yazıçılar və Şairlər Cəmiyyəti işə başladı.



O zaman Azərbaycana rəhbərlik edən ulu öndər Heydər Əliyev Cənubi Azərbaycanda baş verən bu yenilikləri bu tayda xalqımıza çatdırmaq, milli-mənəvi birlik ideyasını dirçəltmək, azərbaycançılığın ideyadan ideologiyaya çevrilməsi istiqamətində ilk ciddi addımlar atdı.

Azərbaycan SSR-də "Cənubi Azərbaycan" adı elmi-siyasi məfhum kimi rəsmiləşdirildi. Azərbaycan Yazıçılar İttifaqında, Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, AMEA-nın Ədəbiyyat və Şərqşünaslıq institutlarında müvafiq şöbələr təsis edilərək fəaliyyətə başladı. Bununla da Cənubi Azərbaycan tarixinin, ədəbiyyatının və mədəniyyətinin öyrənilməsi və tədqiqi üçün böyük imkanlar açılmış oldu.

1976-cı ildə AMEA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda (indiki Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu) Cənubi Azərbaycan şöbəsi yaradıldı. Əvvəlki dövrdə isə Cənubi Azərbaycanın problemləri əsasən İran tarixi və iqtisadiyyatı şöbəsi daxilində öyrənilmişdi. Artıq 46 ildir ki, Cənubi Azərbaycan tarixi, onun problemləri ayrıca şöbədə öyrənilir. Bu yöndə sistemli və zəngin tədqiqatlar bu gün daha geniş və dərindən davam etdirilir.

***– İndiyədək Cənubi Azərbaycanın tarixinin öyrənilməsi ilə bağlı hansı işlər aparılmışdır?***

– Şərqşünaslıq İnstitutunun elmi strukturunda Cənubi Azərbaycan şöbəsi yaradıldıqdan sonra, xüsusilə 1978–1979-cu illərdə, bir sıra istedadlı gənc tədqiqatçılar bu şöbə ətrafında cəmləşdi. Cənubi Azərbaycan tarixi problemlərinin kompleks şəkildə öyrənilməsində və aparılmış tədqiqatların nəticələrinin geniş oxucu kütləsinə çatdırılmasında, ümumiyyətlə, Güney mövzusunu qabartmaqda bu şöbənin böyük rolu oldu.

Cənubi Azərbaycanla bağlı tədqiqatlarda 1941–1946-cı illər milli-azadlıq hərəkatı, xüsusən Azərbaycan Milli Hökumətinin yaranması, onun müxtəlif sahə və istiqamətlər üzrə fəaliyyəti, həmçinin həmin dövrdə meydana gəlmiş müxtəlif ictimai-siyasi təşkilatların işi, Azərbaycanda mövcud olan mədəni və mənəvi həyat geniş şəkildə araşdırılmış, eləcə də hərəkatın meydana gəlmə səbəbləri, hərəkətverici qüvvələri, məğlubiyyət səbəbləri əsaslı şəkildə öyrənildi. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının əvvəlki mərhələləri də İran şöbəsində tədqiqatçıların diqqət mərkəzində oldu.

XIX əsr Təbriz tarixinə, Cənubi Azərbaycan maarifçilərinin fəaliyyətinə, Cənubi Azərbaycan milli şüurunun formalaşmasına, XX əsrin birinci yarısında Azərbaycan-İran mədəni əlaqələrinə, Cənubi Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni həyatına, Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyətinə dair namizədlik dissertasiyaları müdafiə edildi, sonralar onların bəziləri təkmilləşdirilərək monoqrafiya şəklində çap edildi.

1987-ci ildə çap edilmiş Azərbaycan Sovet Ensiklopediyasının X cildində getmiş "Cənubi Azərbaycan" başlıqlı iri həcmli məqalə də bu şöbə tərəfindən təqdim edilmişdir. Həmçinin ilk dəfə 1994-cü ildə ali məktəb tələbələri üçün çap edilmiş "Azərbaycan tarixi" dərsliyinin I cildində getmiş "Cənubi Azərbaycan (1828–1917)" adlı fəsil bu şöbənin böyük zəhmətinin məhsuludur. Şöbədə müstəqillik illərində aparılmış tədqiqatlar isə ayrıca bir söhbətin mövzusudur.

***Müsahibəni apardı: Nərgiz QƏHRƏMANOVA, AMEA Rəyasət Heyəti aparatının sektor müdiri***

## Yeni arxeoloji tapıntılar



**Qərbi Azərbaycan Aşnoye Mədəni İrs İdarəsi burada aparılmış arxeoloji qazıntılar barədə məlumat verib. Alimlər mis-daş, tunc, dəmir və İslam dövrünə aid 111 ən qədim yaşayış yeri aşkar ediblər. Əldə edilmiş əşyalar, əsasən, gil, daş və sümükdən ibarətdir.**

Qeyd edək ki, Azərbaycanın güneyində yerləşən bölgələr İran inzibati ərazi bölgüsünə əsasən, Qərbi Azərbaycan, Şərqi Azərbaycan, Ərdəbil, Zəncan, Gilan, Qəzvin, İsfahan, Həmədan və Kürdüstan ostanlarına bölünmüşdür.

## 700 kənddə içməli su çatışmır



**Yerli sakinlər və sosial media fəalları Şərqi Azərbaycan əyalətində təmiz su çatışmazlığı problemindən şikayət edirlər. Onlar əyalətin Qumtəpə bölgəsində problemin daha ciddi hal aldığını yazırlar.**

Sakinlərin məsələ ilə bağlı dövlət qurumlarına müraciətləri cavabsız qalıb. Müraciətdə göstərilir ki, Şərqi Azərbaycan əyalətinin 700 kəndində su qıtlığı yaşanır. Təbriz Universitetinin Planlaşdırma və Çevrə Elmləri fakültəsinin rəhbəri Behruz Sari bildirib ki, Şərqi Azərbaycanın 360 kəndi tamamilə boşalıb. Hökumət bu barədə ciddi fikirləşmədilir.

## Əlburzda alkoqoldan 95 nəfər zəhərlənib

**İran islam dövləti olsa da burada alkoqollu içkilərdən ölüm halları əksər şəhərlərin payına düşür. Əlburz əyaləti də belə yaşayış məskənlərindən biridir.**

Əlburz Tibb Elmləri Universitetinin rəhbəri bu əyalətdə təkcə 2 gündə spirtli içki qəbulu səbəbindən zəhərlənənlərin sayının 95 nəfər olduğunu açıqlayıb.

İranda spirtli içkilərin satışı qadağandır. Ona görə də ölkəyə digər yerlərdən qaçaqmalçılıq yolu ilə keyfiyyətsiz içkilər daxil olur. Təkcə Kərəcdə saxta içki qəbulu səbəbindən 14 nəfər ölüb, 88 nəfər xəstəxanaya müraciət edib.

***Rəhman GƏNCƏLİ***

**Yeni kitablar**

# "Qaçaq Aslan" Güneydə milli savaşın bədii salnaməsidir

**Bu gün Arazın o tayında baş verən hadisələr müəyyən mənada Azərbaycanın Qarabağ uğrunda savaşının uğurlarından da güc alıb. Həmin hərəkatın edamlara, təzyiqlərə, ölümlərə baxmadan inadla davam etməsi həm də dünya azərbaycanlılarının Qarabağ zəfərindən aldığı ilhamın və ümummilli ruhun yaratdığı dalğa ilə də bağlıdır.**

Bu təəssürat yazıçı-publisist Ulduz Qasımın yaradıcılığına münasibətdən qaynaqlanır. Soydaşlarımız uzun illər Vətəndən uzaqda yaşasa da bir an da olsun özünü onun taleyindən kənarda görməyib.

Onun əsərləri insan olmaq uğrunda mübarizə salnaməsidir. "Tələbə gündəliyi", "Mən aşiqəm Qarabağda", "Qürbət zöhrəsi", sosial şəbəkədə ardıcıl olaraq davam edən esseləri, publisist yazıları cəmiyyətə insan olmağın yolunu təlqin edən əsərlərdir. "Xocalı şikəstəsi", "Solmayan Nərgiz", "Qarabağda qiyamət", "Ağ göyərçinlər" romanları qanın qurumadığı, qisas uğrunda mübarizənin ən odlu çağlarında yazılmış əsərlərdir. Və deməli, tarixi Qarabağnamələrin mənəvi davamı olan Ulduz salnaməsi müəllifin Vətən uğrunda bir savaşçı olduğunun sübut-sənədləridir.

...Və nəhayət, "Qaçaq Aslan" romanı. Bu romanın qəhrəmanı Qaçaq Aslan Təbrizdə 1945-ci ildə Milli Hökuməti qurmuş qəhrəmanların ümumiləşmiş obrazıdır. "Qaçaq Aslan" milli savaşın bədii salnaməsidir. Təkcə elə bu roman bəs edir ki, sıravi fədailərin hər biri miqyassız bir qəhrəman kimi qəbul edilsin. Əsər insan gücünün nəyə qadir olduğunu ən real, həyati epizodlarla göstərə bilir. Baxmayaraq ki, milli hökumət uğrunda savaş birillik şərəfli yoldan sonra öz qanında boğuldu. Əlbəttə, birləşmiş beynəlxalq irtica və şah rejimi heç bir insani qanun tanımadığını və yalnız mənafe mövqeyindən hökm etdiyini artıq tarixin lənətli bir səhifəsi kimi miras qoyub getdi.




Milli Hökumətin lideri Seyid Cəfər Pişəvəri hadisələrin sonunda onu tək qoyan sovet müttəfiqlərinə açıq-aşkar demişdi ki, siz bizim ideallarımıza xəyanət etdiniz. İndi imkan verin, öz haqqımızı qoruyaraq, döyüş meydanında şərəflə ölək. Böyük Pişəvərinin bir xalq üçün tarixi and ola biləcək həmin sözləri bu gün yaddaşlarda oyanmaqdadır. Çox güman ki, "Qaçaq Aslan" romanının təmsil etdiyi insanların da hər biri indi məzar sükutunda ruhunun dili ilə danışır.

"Qaçaq Aslan" romanının son səhifələrində çox təsirli epizod var. Şərqşünaslıq fakültəsinin tələbəsi Beytulla Ərsalan onunla bir qrupda oxuyan dostu Kamalla Cəbrayıla qonaq gedir. Sərhəddin kənarı ilə şütüyən qatarın pəncərəsindən Araz boyu baxır. Dəmiryol xəttindən bir neçə metr o tərəfə tikanlı məftillərin cızıltısını öz canında hiss edir və bunu dostuna da bildirir. Dostunun dayısı, dövrünün tanınmış adamı, Sosialist Əməyi Qəhrəmanı Köçəri Babayev bacısı oğlunun təkidi ilə onları Xudafərinə aparır. Üstündən, az qala, bir quş da səkməyən tikanlı məftillərin qapısını açdırır, Beytulla Ərsalanın körpü üstünə çıxmasına icazə alır. Yeniyetməlik çağınacan doğma yurdunun havası ilə böyümüş Beytulla, sanki, atasından aldığı həsrət yangısı ilə o taya baxır. Təkcə elə onun düşüncələri yeni nəsillərə birlik dərsliyi ola biləcək gücdədir.

Ulduz Qasım "Qaçaq Aslan" romanını ürək qanı ilə yazıb. Necə ki, Qarabağ salnamələrini iztirabları ilə, qəlb göynəmləri ilə yaradıb.

Ulduz, sözün həqiqi mənasında, savaşçıdır. O, zahirən çox sakit görünən, ağrısını içində çəkən qələm əhlidir. Təkcə onun hansı müqavimətləri dəf etdiyini təsəvvür edə bilsək, bu cansız, çəlimsiz qadının daxilən necə böyük qüdrət sahibi olduğunu dərk etmək çətin olmaz. O, əhatəsində olanların müqavimətini qıraraq, yorulmadan yazı savaşı aparaq, əsərlərinə necə nail olubsa, yaratdıqlarını da elə iradəsi və inamı ilə işığa çıxara bilib. Ulduz Vətəndən uzaqda yana-yana yaşamağın, oda tutularaq yaratmağın örnəyidir.

Bilmirəm, bəlkə də təkrar etmək yerinə düşər. Haradadır elə bir Vətən fədaisi olan imkanlı şəxs ki, bu əsəri daha kütləvi tirajla nəşr edib ünvanına çatdıra bilə. Əlbəttə, söhbət "Qaçaq Aslan" romanından gedir.

Ulduz Qasım yaradıcılığının fikir ümmanlarının hər tərəfinə yol aça biləcək zamanını yaşayır. Vətəninin taleyini sözünün taleyi bildiyi kimi, sözünün də taleyini Vətəninin taleyi kimi qavrayır. Belə olmasaydı, yəqin ki, "Qaçaq Aslan" kimi yanğıyla dolu əsəri yaratmaq çətin olardı. Aslan Borçinin taleyi ən ağır həsrətlərdən keçərək bu gün yaddaşlarda təzədən oyanışa gəlir.

Ötən aylarda İranın Zəncan şəhərindən olan jurnalist-yazıçı Səhra Rzayi "Qaçaq Aslan" romanını fars dilinə tərcümə edib. Səhra xanıma və Təbrizdə fəaliyyət göstərən "Sonayi" nəşriyyatına təşəkkür edirik. Bu günün Qaçaq aslanları öz fədai babalarının yolunda davamlı mübarizədədir. Belə bir vaxtda "Qaçaq Aslan" romanı qəlblərə milli ruh, əzələlərə qüvvət və dözüm gətirir.

***Əlirza XƏLƏFLİ, yazıçı-publisist***

# Əli Tudənin əsərləri Təbrizdə nəşr olunub

**Bütöv Azərbaycanın görkəmli şairi Əli Tudənin 2024-cü ildə anadan olmasının 100 illiyidir. Bu münasibətlə sənətkarın Təbrizdə 2 kitabı – "Mən nə gətirdim" və "Bakının işıqları" kitabları ərəb əlifbası ilə nəşr olunub.**



Bu, Azərbaycan ədəbiyyatı üçün əlamətdar hadisə hesab oluna bilər. Çünki ömrü boyu bütöv və azad Azərbaycan arzusu ilə yaşayan, bu yolda yorulmadan qələm çalan, inqilabçı şair, Təbriz həsrətli Əli Tudə 50 il öz Vətənində siyasi mühacir kimi yaşamış, sovet pasportundan imtina etmişdir. Qeyd edək ki, şairin "Cənub nəğmələri" adlı kitabı hələ 1946-cı ildə Milli Hökumət zamanı Təbrizdə, şairin filarmoniyanın müdiri vəzifəsində çalışdığı dövrdə çap olunmalı idi. Lakin Milli Hökumət süquta uğradıqdan sonra onun milli ruhlu şeirlərindən ibarət kitabı mətbəədə yandırıldı və şah tərəfindən ölümünə fərman verildi. Məcburiyyət qarşısında qalan şair Arazın bu tayına keçdi və bir daha Təbrizə gedə bilmədi.

Əli Tudənin kitablarının 77 il sonra Təbrizdə işıq üzü görməsi az da olsa ədalətin öz yerini tutmasıdır. Belə addımlar Güneydə milli varlığımızın dirəniş gücünü göstərir. "Azərturan" nəşriyyatında ikicildliyin ərsəyə gəlməsində gənc qələm sahibi və tərcüməçi Əli Aslaninin böyük zəhməti var. Əli Aslani şairin anadan olmasının 100 illiyinədək Əli Tudənin "Təbriz yolu" ," Araz üstə palıd" kitablarını və xatirələrini də çapa hazırlayır.

***Hüseyn RƏHİMZADƏ***

# Azərbaycan–Türkiyə elm körpüsü

**Türkiyənin Azərbaycandakı səfirliyi, Şərqi Anadolu İnkişaf Agentliyi və Van Yüzüncü İl Universitetinin təşkilatçılığı ilə "Türkiyə–Azərbaycan regional əməkdaşlıq imkanları" mövzusunda onlayn konfrans keçirilib.**



Məclisi giriş nitqi ilə Van Yüzüncü İl Universitetinin Sosial Elmlər İnstitutunun direktoru, professor Dr. Bəkir Koçlar açıb. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli tarixi Azərbaycan–Türkiyə qardaşlığı və əməkdaşlığı barədə söz açıb. Ümummilli lider Heydər Əliyevin artıq şüara çevrilmiş "Bir millət – iki dövlət" sözlərini xatırladan AMEA rəhbəri iki qardaş ölkə arasında əsası ulu öndər tərəfindən qoyulmuş strateji əlaqələrin bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən daha da inkişaf etdirildiyini vurğulayıb. Qeyd edib ki, elm sahəsində də qurulmuş əməkdaşlıq əlaqələri yüksək inkişaf mərhələsinə qədəm qoyub.

Akademik İsa Həbibbəyli bu gün AMEA-nın qardaş ölkənin TÜBA, Atatürk Kültür, Dil və Tarix, TÜBİTAK kimi elmi qurumları və onlarla universitetləri ilə səmərəli elmi əməkdaşlıq əlaqələrini yüksələn xətlə inkişaf etdirdiyini söyləyib.

O, ədəbiyyat, dil, tarix, seysmologiya, iqtisadiyyat, demoqrafiya və digər elm sahələri üzrə əməkdaşlığın genişləndirilməsinin, bir sıra ortaq layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Konfransda AMEA Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürov, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı, Azərbaycanın Türkiyədəki səfirliyinin mədəniyyət üzrə baş katibi İslam Quliyev, Van Yüzüncü İl Universitetinin rektoru, professor Hamdullah Şevli, Şərqi Anadolu İnkişaf Agentliyinin baş katibi, professor Xəlil İbrahim Güray və başqaları çıxış edərək gündəlikdə nəzərdə tutulan məsələlər ətrafında fikir və mülahizələrini bildirib, təkliflərini səsləndiriblər.

Konfransda "İki şəhər, bir hekayə: Van və Şuşa" mövzusunda panel iclası da keçirilib, iqtisadi, mədəni və turizm üzrə əməkdaşlıq imkanları müzakirə olunub.

***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

# Deqati Mərkəzi Elmi Kitabxanada

**Tanınmış fotojurnalist, mühacir soydaşımız Reza Deqatinin yaradıcılığında Azərbaycan mövzusu əsas yer tutur. O, dəfələrlə ölkəmizi gəzərək sadə insanların gündəlik həyatını, məişətini, adət-ənənələrini fotolarda əbədiləşdirib.**



Reza Deqati 20 Yanvar və Xocalı faciələrinin müdhiş görüntülərini lentə almağa nail olub. O, 44 günlük Vətən müharibəsi zamanı həm erməni təxribatları nəticəsində zərər görmüş mülki şəxsləri və obyektləri, həm də mənfur düşmənlərimizin işğal edilmiş ərazilərdə ziyan vurduğu, vandalizm aktına məruz qoyduğu tarix və mədəniyyət abidələrini böyük ustalıqla fotolarda əbədiləşdirib. 2014-cü ilin noyabrında Fransada Heydər Əliyev Fondunun və qurumun prezidenti Mehriban xanım Əliyevanın və vitse-prezident Leyla Əliyevanın dəstəyi ilə Reza Deqatinin Azərbaycana həsr olunan fotosərgisi keçirilib, eyni zamanda, onun iki kitabı işıq üzü görüb.

Növbəti dəfə doğma Vətənə gələn Reza Deqati AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) olub. Görüş zamanı MEK-in baş direktoru, professor Məmməd Əliyev Reza Deqatinin nümayiş etdirdiyi fotolardan hər kəsin təsirləndiyini dilə gətirib və İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında fotojurnalistin xidmətlərini yüksək dəyərləndirib. Bildirilib ki, müharibə günlərində Azərbaycanın dinc əhalisinə qarşı törədilən cinayətlər, mənfur qonşularımız tərəfindən amansızlıqla dağıdılan şəhər və kəndlərimizin görüntüləri geniş auditoriyaya Reza Deqatinin fotoları vasitəsilə xüsusi peşəkarlıqla çatdırılıb.

Qonaq, öz növbəsində, azad olunmuş ərazilərə səfəri, görülən işlər və gələcək layihələr barədə danışıb. Bu baxımdan Mərkəzi Elmi Kitabxanada qorunan nəşrlərin, sənədlərin faydalı ola biləcəyini deyib.

Sonra R.Deqati elmi kitabxana ilə yaxından tanış olub, "Qarabağ müharibəsi qəhrəmanları", "Nadir kitablar" və "Qiymətli nəşrlər" fondlarında bölgənin etnoqrafiyasına, tarixinə dair dəyərli nəşrlərə baxıb, ona buradakı guşələr haqqında geniş məlumat verilib. Görüşün sonunda dünya şöhrətli Azərbaycan əsilli fotoqrafa MEK-in "Heydər Əliyev İli"nə həsr etdiyi təqvim hədiyyə edilib.

***N.ƏLİ, "Xalq qəzeti"***

# Azərbaycan play-offda Litva yığmasına qalib gəlib

**Ənənəvi futbol qaydalarına əsaslanan çimərlik futbolu nisbətən gənc olsa da, dünyada populyarlıq qazanıb. Bu idman növünə Azərbaycanda da kifayət qədər maraq var. Yeni və dinamik idman növü kimi Bakıda keçirilmiş ilk Avropa Oyunlarının proqramında yer alan çimərlik futbolunun növbəti Oyunlarda da təmsil olunması ona olan marağın göstəricisidir. Elə yığmamızın Polşa Avropa Oyunlarında 5-ci yeri tutmasını da xüsusi vurğulamaq olar. Həmçinin Azərbaycan komandasının çimərlik futbolunun inkişaf etdiyi Avropada ilk 10-luqda yer alması yaxşı nəticədir.**




Çimərlik futbolu üzrə Bakıda başlayan dünya çempionatının Avropa zonası üzrə seçmə mərhələsində bir-birindən maraqlı matçlar azarkeşlərə əsl bayram sevinci bəxş edir.

"Su İdman Sarayı"nın ərazisindəki yumşaq qum meydançası oyunçuların gözəl texniki fəndlərdən istifadə etməsinə geniş imkanlar yaradır. Azərbaycan yığması A qrupunda Moldova komandasına 2:3, Estoniyaya isə 4:7 hesablı məğlubiyyətindən sonra dünya çempionatına vəsiqə qazanmaq uğrunda mübarizəni dayandırıb.

Daha sonra millimiz play-off mərhələsində yerini müəyyənləşdirmək üçün İtaliya millisi ilə qarşılaşsa da, qrup mərhələsinin son günündə bir çox komandalar kimi, növbəti mərhələyə yüksəlmək baxımından matçın nəticəsindən asılı olmayaraq mövqeyinin dəyişməyəcəyini bilirdi. Yığmamızın İtaliya ilə oyununda 2:3 hesablı nəticə qeydə alındı.

Dünən isə dünya çempionatının Avropa üzrə əsas seçmə mərhələsi zamanı bu sahəyə marağı olan bir qrup autizmli və daun sindromlu uşaqların peşəkar futbolçularla xüsusi təlim-məşq oyunu çox böyük maraqla qarşılandı.

"Hər şey mümkündür" adlı sosial layihə çərçivəsində təşkil olunmuş oyunda 20-ə yaxın uşaq iştirak etdi. Tədbirə Azərbaycan Xüsusi Olimpiya Komitəsi və Milli Paralimpiya Komitəsi nümayəndələri, Dünya Çimərlik Futbolu Təşkilatı, Azərbaycan Çimərlik Futbolu Federasiyasının rəsmiləri də qatılmışdı. Su İdman Sarayının nəzdində fəaliyyət göstərən Avropa Oyunları Parkında keçirilən və bir saata yaxın davam edən matçda qonaqlar müxtəlif Avropa yığmalarının futbolçuları ilə yarışıb fiziki məhdudiyyətlərə baxmayaraq idmanın bütün maneələri aşmağa qadir olduğunu bir daha sübut etdilər.

Sonra play-off oyunlarına start verilib.

Ümumilikdə səkkiz komandanın iştirakı ilə dörd matç keçirilib. İsveçrə-Yunanıstan (6:5), Almaniya-Türkiyə (4:5), Estoniya-Polşa (5:4) qarşılaşmalarından sonra Azərbaycan Litva ilə üz-üzə gəlib. Komandamız Litva yığmasını 3:2 hesabla məğlub edib.

Bununla da komandaların turnirdə 9-12-ci və 13-16-cı yerlər üzrə mövqeləri müəyyənləşib.

Bu gün isə turnirin ən güclü 8 komandası 4 qarşılaşmada mübarizə aparacaq. Onların arasında keçiriləcək bu oyunların (Belarus-Fransa, Portuqaliya-Danimarka, Ukrayna-Moldova, İtaliya-İspaniya) nəticələrinə əsasən 4 ən güclü komanda növbəti ilin fevralında BƏƏ-də keçiriləcək dünya çempionatına vəsiqə qazanacaq.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) təşkilatçılığı ilə baş tutan seçmə mərhələ bu gün yekunlaşacaq.

***Leyla QURBANOVA, "Xalq qəzeti"***

# Ağırlıqqaldıranlarımız Avropada 14 medal qazanıblar

**Moldovanın paytaxtı Kişineuda keçirilən 15 və 17 yaşlı yeniyetmə oğlan və qızlar arasında Avropa birinciliyində komandamız böyük uğurla çıxış edərək 14 medal qazanıb.**




Körpücük üzərinə son olaraq Muhamməddəli Məmmədzadə çıxıb. O, yaşı 15-ə qədər olan oğlanlar arasında 96 kq çəki dərəcəsində mübarizə aparıb. "Göyəzən" Ağır Atletika Klubunun təmsilçisi olan atletimiz birdən qaldırma hərəkətində 117 kiloqramı qaldırıb və bu hərəkətdə bütün rəqiblərini üstələyərək qızıl medal qazanıb. Muhamməddəli təkanla qaldırma hərəkətində də uğurla çıxış edib. O, 138 kiloqramı başı üzərinə qaldırıb və bu hərəkətdə gümüş medala sahib çıxıb. Toplam 255 kq (117+138) nəticə göstərən idmançımız yekun sıralamada da gümüş medal əldə edib.

Bununla da, komandamızın əldə etdiyi medalların sayı 14-ə (8 qızıl, 4 gümüş və 2 bürünc medal) çatıb.

Qitə birinciliyinə 40-a yaxın ölkədən 356 atlet (165 qız və 191 oğlan) qatılıb.

***L.QURBANOVA, "Xalq qəzeti"***

## BEYNƏLXALQ HƏYAT

# "Taxıl dəhlizi" açıq qalacaqmı?

**NATO-nun Vilnüs sammiti ərəfəsində Ukrayna Prezidenti Volodimir Zelenski alyans ölkələrinə səfər etdi. İyulun 6-da o, Bolqarıstanda, Çexiyada oldu, oradan iyulun 7-də Slovakiyaya, sonra da Türkiyəyə getdi. Cənab Zelenski səfərlər zamanı oxşar mövzuları müzakirə etdi: Kiyevə silah tədarükü, Rusiyaya təzyiq, Ukraynanın NATO-ya daxil olması. Amma ukraynalı liderin Türkiyəyə səfəri daha çox diqqətlə izlənilirdi. Çünki Ukraynada müharibənin davam etdiyi şəraitdə "taxıl dəhlizi"nin fəaliyyət göstərməsi həyati əhəmiyyət kəsb edir.**



Xatırladaq ki, taxıl sazişi Rusiya, Ukrayna, Türkiyə və BMT arasında 2022-ci ilin iyununda Ukrayna limanlarından Qara dəniz vasitəsilə taxıl ixracına dair beynəlxalq müqavilədir. Sadə dillə desək, taxıl müqaviləsinin mahiyyəti ondan ibarətdir ki, Rusiya Qara dənizdə təhlükəsiz dəniz dəhlizləri açır və bu dəhlizlər vasitəsilə taxıl Ukraynanın üç limanından (Odessa, Çernomorsk və Yujnı) ixrac edilir. Belə olan halda Rusiya ixraca müdaxilə etməyəcək və təhlükəsizliyi təmin edəcək. İmzalanmış saziş taxıl müqaviləsinin müddəti başa çatarsa, onun avtomatik uzadılmasını nəzərdə tutur.

Qeyd edək ki, müharibə başlamazdan əvvəl Rusiya və Ukrayna dünya bazarında buğda həcminin təxminən üçdə birini satırdılar (təchizatın təxminən 20 faizi Rusiya, 12 faizi isə Ukraynanın payına düşür). Taxıl Afrika, Yaxın Şərq və bəzi Asiya və Aİ ölkələrinə ixrac edilirdi. Müharibənin başlanmasından sonra bir çox ölkə Rusiya ilə ticarətdən imtina etdi və ölkədəki hərbi əməliyyatlar səbəbindən Ukraynadan taxıl ixracı dayandırıldı. Bu, qiymətlərin sürətlə artmasına və bəzi ölkələrdə aclıq təhlükəsinə səbəb oldu. Məsələn, BMT-nin məlumatına görə, 2022-ci ilin mart ayında buğdanın qiymətindəki artım həmin ilin fevral ayı ilə müqayisədə 20 faiz təşkil etmişdi.

İyulun 17-də "taxıl dəhlizi"nin fəaliyyətinin müddət başa çatır. Ancaq rəsmi Moskva açıq şəkildə bildirir ki, sövdələşməni uzatmaq niyyətində deyil, çünki Rusiyanın ərzaq və gübrələrinin ixracına qoyulan qadağa hələ də qüvvədədir. Buna görə də, Qərb ölkələri, xüsusilə də Ukrayna "taxıl dəhlizi"nin fəaliyyət göstərməsinə çalışır. Bu məqsədlə cənab Zelenski Türkiyəyə səfər etdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə keçirdiyi brifinqdə ukraynalı lider bildirdi ki, bütün dünya Ukrayna taxılının ixracı üçün "taxıl dəhlizi"nin fəaliyyətində maraqlıdır və buna görə də onun fəaliyyəti Rusiya Federasiyasından asılı olmamalıdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi ki, taxıl sazişinin müddətinin uzadılması xüsusi əhəmiyyət kəsb edir: "İl ərzində taxıl dəhlizi ilə 33 milyon ton məhsul daşınmışdır. Bu müqavilənin müddəti iyulun 17-də başa çatır. İndi sazişin müddətinin uzadılmasına nail olmaq çox vacibdir. Türkiyə bu istiqamətdə səylərini davam etdirir. Bu təşəbbüsün iki-üç ay müddətində davam etdirilməsi vacibdir. Ümumiyyətlə, 2 il müddətində dünya bazarlarına məhsulların çıxarılmasını təmin etməyə çalışırıq. Türkiyə iyulun 17-də başa çatacaq taxıl sazişinin uzadılmasına ümid edir. Biz taxıl dəhlizinin iki il müddətinə uzadılmasına çalışacağıq".

Bundan başqa, qardaş ölkə liderinin sözlərinə görə, Türkiyə Ukrayna ilə Rusiya arasında sülhə nail olmaq üçün səylərini davam etdirəcək: "Biz münaqişənin başlanğıcından bir çox sahələrdə – siyasi, iqtisadi, təhlükəsizlik sahələrində konkret yardım göstərməklə Ukrayna ilə həmrəy olduğumuzu nümayiş etdirmişik. Biz həm də beynəlxalq hüquq əsasında danışıqlar yolu ilə müharibənin sona çatması üçün ən intensiv səy göstərən ölkə olduq".

Ukrayna–Türkiyə danışıqları, şübhəsiz ki, Volodimir Zelenskinin səfər proqramının vacib hissəsi kimi qiymətləndirilirdi. Təkcə ona görə yox ki, Ankara taxıl təşəbbüsündə həm bu sövdələşməyə diplomatik dəstək, həm də Ukrayna limanlarından taxıl ixracına logistik töhfə baxımından əsas rol oynayıb və oynamaqda davam edir. Bu gün cənab Ərdoğan NATO üzvü olan ölkələrin Rusiya–Ukrayna münaqişəsinin hər iki tərəfi ilə təmasda olan azsaylı liderlərindən biridir. Hələ Ərdoğan–Zelenski görüşündən əvvəl Türkiyə mətbuatı ukraynalı qonaqla danışıqlardan sonra Türkiyə Prezidentinin rusiyalı həmkarı Vladimir Putinlə əlaqə saxlamağı planlaşdırdığını yazmışdı.

İndi hamı Türkiyə liderinin rusiyalı həmkarı Vladimir Putinlə görüşünü gözləyir. Görüşün hansı nəticə ilə yekunlaşacağı barədə müxtəlif mülahizələr irəli sürülür. Bununla belə, Ərdoğan–Putin görüşündə hansısa nəticə hasil olmayacağı təqdirdə Ukrayna taxılının daşınacağı marşrutlar müzakirə edilir. Ukrayna Aqrar Biznes Klubunun analitiki Svetlana Litvinin sözlərinə görə, əgər razılaşma davam etməsə, ukraynalı fermerlərin alternativləri var. Ukrayna məhsullarını başqa yollarla da ixrac edə bilər: Dunay çayının limanları vasitəsilə, eləcə də Ukraynanın qərb sərhədləri ilə dəmir yolu və avtomobil yolu ilə. Lakin bunun üçün ayrıca infrastruktur təşkil etmək və beynəlxalq ekspertləri cəlb etmək lazımdır. Bununla belə, analitik hesab edir ki, dəniz limanları vasitəsilə ixrac ən sürətli və logistik cəhətdən optimal yoldur.

Bir sözlə, taxıl müqaviləsinin ləğvi dünya bazarında qiymətlərin artmasına və ilk növbədə, Afrika ölkələrinə, eləcə də hazırda Ukrayna məhsullarını aktiv şəkildə alan Şərq ölkələrinə ərzaq çatdırılmasında ciddi çətinliklərə səbəb ola bilər. Buna görə də, mütəxəssislər Ərdoğan–Putin görüşünün nəticəsinin dünya iqtisadiyyatı üçün də təsiri olacağını düşünürlər.

***Səbuhi MƏMMƏDOV, "Xalq qəzeti"***

# Ukraynaya Qərbin yardımı davam edir

**Baxmut istiqamətində Müdafiə Qüvvələri gün ərzində 1 kilometrdən çox irəliləyib. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin şərq qoşun qrupunun sözçüsü, polkovnik Sergey Çerevatı bildirib: "Baxmut istiqamətində müdafiə qüvvələri təşəbbüsü saxlamaqla düşmənə təzyiq göstərir, hücum əməliyyatlarını həyata keçirir, şimal və cənub cinahları ilə hərəkət etməkdə davam edir. Xüsusilə, son 24 saat ərzində orada bir kilometrdən çox məsafə qət edilib".**



Çerevatı düşmənin şiddətli müqavimət göstərdiyini vurğulayıb. Belə ki, son sutka ərzində 318 dəfə ukraynalı müdafiəçilərə raket artilleriyasından zərbələr endirilib, 3 dəfə hava hücumu təşkil edilib: "Ruslar Baxmut istiqamətdə kiçik əks-hücumlar həyata keçirməyə çalışırlar, lakin təşəbbüs, "bütövlükdə" Müdafiə Qüvvələrinə məxsusdur. Və biz dərk etməliyik ki, qüvvə və vasitə baxımından onlardan heç bir üstünlüyümüz olmamasına baxmayaraq irəliləyirik".

Luqansk vilayətindəki vəziyyətə gəlincə, Çerevatı deyib: "Düşmən orada təşəbbüsü ələ almağa çalışır. Bu məqsədlə kifayət qədər güclü qüvvələr cəmləşdirib. Ümumiyyətlə, onların planı Luqansk və Donetsk vilayətlərini işğal etmək idi. Lakin Müdafiə Qüvvələrinin uğurlu fəaliyyəti sayəsində bu planlar pozuldu. Əslində, hazırda bu, planlaşdırıldığından fərqli olaraq lokal hücumlardır. Burada çoxlu düşmən olsa da, o qədər də hazırlıqlı və koordinasiya olunmayan, heç bir motivasiyası olmayan qüvvələrdir.

Məhz motivasiya, yaradıcılıq, ahəngdarlıq qoşunlarımıza müəyyən ərazilərdə düşməni uğurla dəf etməyə və ona itkilər verməyə, Baxmut istiqamətində isə canlı qüvvəsini və texnikasını qoruyub saxlamaqla çox düşünülmüş şəkildə irəliləməyə imkan verir. Bu bizim üçün prioritetdir. Bunu Avdyevka sahəsində döyüşlərdən aydın görmək olar. Rusların hücumu 10 saat davam edib. Hücumun dəf edilməsi nəticəsində Rusiyaya məxsus 2 T-80BV tankı ələ keçirilib".

Ukrayna Prezidenti Volodimir Zelenski isə deyib: " Ukrayna ona görə döyüşür ki, sadəcə, öz həyatını bərpa etmək, sağ qalmaq istəyir, ona görə də tərəfdaşlarından kömək istəyir. Sadəcə, döyüşmək istəsəydik, artıq Rusiyada olardıq".

Ukraynaya kömək isə davam edir. ABŞ Prezidenti Cozef Bayden Ukraynaya kasetli sursatların göndərilməsini təsdiqləyib. Çexiya Ukraynaya yeni hərbi yardım paketi hazırlayıb. Bu ölkə Ukraynaya döyüş helikopterləri və sursatlar göndərəcək.

***Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"***

KİTAB RƏFİ

## Nəsir Əhmədli: "Salamat qal, gözəl dünyam"

**BDU-nun professoru, Əməkdar jurnalist, tanınmış söz adamı, şair, publisist və tərcüməçi Nəsir Əhmədli haqqında həm sağlığında, həm də ölümündən sonra müxtəlif vaxtlarda yazılmış məqalə və şeirlərin bir hissəsinin toplandığı kitab işıq üzü görüb.**




"Salamat qal, gözəl dünyam" şeiri ilə açılan kitaba Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva "Nəsir Əhmədli" adlı ön söz yazıb. Tanınmış alimin şəxsiyyət və yaradıcılığını yüksək dəyərləndirən Qənirə xanım qeyd edir ki, Nəsir müəllim bir çox təltiflər alıb, sanballı mükafatlara layiq görülmüşdü. Ancaq onun ən böyük mükafatı təmiz adı, müstəqil dövlətimizə, elmə, mədəniyyətə sədaqətli xidmətidir.

Kitab "N.Əhmədliyə sağlığında yazılanlar", "N.Əhmədli xatirələrdə", "N.Əhmədliyə həsr olunmuş şeirlər" bölmələrindən ibarətdir. Bir il əvvəl dünyadan köçmüş Nəsir müəllimə həsr edilən nəfis tərtibatlı kitab "Avrasiya Beynəlxalq Araşdırmalar İnistituti İB" və "Regional Hüquq və İqtisadi Marifləndirmə İctima Birliyi"nin nəşridir, "CBS Poliqrafiya" nəşriyyatında çap olunub.

## Sevil Həsənova: "Hüseyn Cavidin ədəbi-bədii irsi mətbuatda"




**Cavidşünaslığın müxtəlif məsələləri ilə bağlı çoxsaylı elmi araşdırmaların müəllifi olan Sevil xanımın bu kitabında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair və dramaturq Hüseyn Cavid elmi-ədəbi ictimaiyyətə, həm də bir publisist kimi təqdim olunur.**

Geniş oxucu kütləsi – elmi dairələr, universitet müəllimləri, magistr və tələbələr üçün nəzərdə tutulan monoqrafiyada Hüseyn Cavidin dövri mətbuatda müxtəlif mövzularda çap olunan bədii-publisistik məqalələri, resenziyaları, elmi nəzəri fikirləri ilk dəfədir ki, geniş şəkildə tədqiq edilir. Müəllif haqlı olaraq vurğulayır ki, Hüseyn Cavidin "Şərqi-Rus", "İrşad", "Həyat", "Həqiqət", "Şəlalə, "Açıq söz", "Azərbaycan","Yeni yol", "Azərbaycan füqərası" kimi onlarca nəşrdə çap olunan publisistik məqalələrində də milli dəyərlərə, başqa din və dillərə hörmət, tolerantlıq ideyaları yer alır.

Hüseyn Cavid irsini Azərbaycan xalqının milli-mənəvi sərvəti adlandıran AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli kitaba yazdığı ön sözdə monoqrafiyanı "Cavidşünaslığa layiqli töhfə" adlandırıb.

Kitab "Təhsil" EİM-in nəşridir.

## "Ozan dünyası"nın yeni sayı

**Azərbaycan Aşıqlar Birliyinin nəşri olan "Ozan" elm və sənət toplusunun 2023-cü ildə ilk buraxılışı işıq üzü görüb. Toplunun yeni nömrəsi ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Xalq şairi Zəlimxan Yaqubun "Əbədiyyət dastanı" poemasından bir parça ilə açılır.**

Oxucular buraxılışın bu nömrəsində bu il yubileyləri qeyd olunan görkəmli saz-söz ustadları Hüseyn Bozalqanlı (M.Qasımlı. "Ustadlar ustadı"), Şair Nəbi Borçalı (E.Məmmədli. "Borçalı nəğməkarı"), Murad Niyazlı (S.Alıyev. "Ağır ellər ozanıyam"), Əkbər Cəfərov ("Sazın Əkbər möcüzəsi") və Məmmədağa Babayev haqqında yazılar və onların şeirlərindən nümunələrlə tanış ola bilərlər.




Topluda Azərbaycan Aşıqlar Birliyinin həyata keçirdiyi tədbirlər barədə xəbərlər və son vaxtlar işıq üzü görmüş kitablar haqqında qısa məlumatlar da yer alır.

***N. QƏDİMOĞLU,***
***"Xalq qəzeti"***

Ölüm sevinməsin qoy...

# Nurdan yaranmışdı – nur oldu, getdi...

**Görkəmli türkoloq və dilçi-alim Mədəd Çobanov 40 günə yaxındır ki, haqq dünyasına qovuşub. Onu tanıyanlar – qohumları, dostları, elm ictimaiyyəti bu itkini ağrı ilə qarşılayıblar.**



İyulun 12-də məzarüstü abidəsinin qarşısında mərhum kədərlə anılacaq, amma bir müddət sonra Mədəd müəllimdən söz düşəndə hər kəsin xoş duyğularla, iftixarla danışacağına, ona sidq ürəklə Allahdan rəhmət diləyəcəyinə əminik. Çünki o, Azərbaycan elminin tanınmış simalarından biri, istedadlı ədəbiyyatnəvis, məşhur qorqudşünas, onomastika və toponomika sahələrində dəyərli sözünü demiş zəhmətkeş tədqiqatçı, təcrübəli pedaqoq, vətənpərvər insan kimi ad qoyub gedib...

1937-ci ilin aprelində qədim Borçalı mahalında, Bolnisi rayonunun Darbaz kəndində dünyaya gəlmiş Mədəd Namaz oğlu orta təhsilini doğma yurdunda alıb, Tbilisi Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib və Azərbaycan Elmlər Akademiyasının İ.Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasında qiyabi təhsil alıb.

Azərbaycan dilinə, ədəbiyyatına, mədəniyyətinə olan sonsuz sevgisi Mədəd müəllimin elmi mövzusunda da öz əksini tapıb. Namizədlik dissertasiyası "Borçalı–Bolnisi rayon şivələrinin leksikası" mövzusunda idi. O, yaxşı bilirdi ki, boya-başa çatdığı torpaq Azərbaycanımızın ayrı düşmüş bir parçasıdır. Elə buna görə də, Borçalı şivələri, onomastikası, toponimləri, antroponimləri (şəxs adları) və s. onun elmi tədqiqatının ana xəttini təşkil edib. 36 yaşında namizədlik dissertasiyasını uğurla müdafiə edərək, həmin ildən vaxtilə ali təhsil aldığı Tbilisi Dövlət Pedaqoji İnstitutunda 25 ilə qədər çalışıb, orada müəllim, dosent, professor, kafedra müdiri olub.

1994-cü ildə Gürcüstanda baş verən ictimai-siyasi hadisələr üzündən Bakıya köçəndə o, artıq doktorluq dissertasiyasını uğurla müdafiə etmiş və professor olmuşdu. Görkəmli alim qalan ömrünü Azərbaycan paytaxtında elmi-pedaqoji sahədə davam etdirib. Bir sıra özəl və dövlət ali məktəblərində çalışıb. 2000-ci ildə Türk Dil Qurumunun üzvü, 2001-ci ildə Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilib.

O, həm də Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Ekspert Şurasının üzvü, Respublika "Təhsil" Mərkəzinin baş direktoru və digər vəzifələrin öhdəsindən layiqincə gəlib. Yüzlərlə müəllimin, minlərlə gənc kadrın yetişməsində danılmaz zəhməti olan Mədəd Çobanov 80-dən çox kitabın, o cümlədən 15 monoqrafiyanın, 10-dan artıq dərslik və dərs vəsaitinin, 60 elmi əsərin müəllifi idi.

Görkəmli professorun geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş kitablarından biri Kitabi-Dədə Qorqudun 1300 illik yubileyinə həsr olunmuş "Qəhrəmanlıq dastanı"dır. Həmin monoqrafiyanın 2-ci hissəsi "Borçalıda Dədə Qorqud izləri" adlanır. Qismətə baxın ki, görkəmli alim artıq 40 günə yaxındır, Bakıdakı "Dədə Qorqud" qəbristanlığında uyuyur və ruhu Qorqud babasının ruhuna qovuşub.

Mədəd Çobanovun "Görkəmli strategiyaçı" kitabı isə 100 illik yubileyini qeyd etdiyimiz ümummilli lider Heydər Əliyevə həsr olunub. Onun müxtəlif mövzulu kitabları, dərslik və dərs vəsaitləri Azərbaycanla bərabər, qardaş Türkiyə, qonşu Rusiya və Gürcüstan, habelə Orta Asiya ölkələrində çap edilib, tanınmış elm mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilib.

İşıqlı şəxsiyyət olan Mədəd Çobanovun 60, 70, 75, 80 illik yubileyləri Bakıda, Tbilisidə, Marneulidə və doğma Darvaz kəndində təntənə ili qeyd olunub, haqqında filmlər çəkilib, tele-radio verilişləri hazırlanıb, elmi konfranslar, sessiya və seminarlar keçirilib, kitablar yazılıb.

Şərəfli əməyinə görə layiq görüldüyü Prezident təqaüdü, orden və medallar, qazandığı ad-san onun şöhrət əmanətləridir. Mədəd müəllim gözəl alim olduğu qədər də, gözəl ailə başçısı idi. Ömürgün yoldaşı, Əməkdar tibb işçisi Rima xanımla birlikdə 5 layiqli övlad – 5 ziyalı böyüdüb boya-başa çatdırıb. O, həm də bəxtəvər baba sayılırdı: 9 nəvəsi və 15 nəticəsi var.

Tanınmış şair Səadət Buta bir şeirində ustad alim Mədəd Çobanovu Mehralı bəy yurdunda, Darvaz elində nurdan yaranmış varlıq adlandırıb:

**Səpdin, dən-dən oldu bitirdiklərin,**
**Alim, aqil oldu yetirdiklərin...**
**Damladan göl oldu götürdüklərin**
**Elmə arxalandın, Mədəd müəllim!**

Haqqında keçmiş zamanda danışmaq çətin olsa da, deməyə məcburuq: eldən və elmdən gedən ziyalımız idi Mədəd müəllim. O, cismən aramızda deyil, amma mənən həmişə bizimlə olacaq, xatirəsi hər zaman əziz tutulacaq.

**Allah rəhmət eləsin!**

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

Son saatda

# Şabranda meşə yanğını



**Fövqəladə Hallar Nazirliyindən aldığımız məlumatda bildirilir ki, həyata keçirilmiş zəruri və təxirəsalınmaz tədbirlər nəticəsində Şabran rayonu, Təkyə kəndi yaxınlığında mürəkkəb relyefli ərazidə baş vermiş yanğın məhdudlaşdırılıb.**

Yanğınla mübarizə tədbirlərinə FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri və Aviasiya dəstəsinin 2 helikopteri, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşə təsərrüfatı mərkəzinin əməkdaşları və bir qrup kənd sakini cəlb olunub. Qəzetimiz çapa getdiyi gecə saatlarında yanğının tam söndürülməsi istiqamətində tədbirlər davam etdirilirdi.

***"Xalq qəzeti"***

**Təkrar**

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün dəftərxana və təsərrüfat malları̇nın satın alınması məqsədilə

## TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz manat) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

Təşkilat – Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

Bankın adı – "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı

Kod – 805603

VÖEN – 9900001881

M/h–AZ03NABZ01350100000000002944

S.W.I.F.T. İBAZAZ 2X

H/h– AZ88IBAZ38030019441856517211

VÖEN– 1500016711

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- qeydiyyatdan keçdiyi ölkə (təqdim olunması məcburidir. Dövlət reyesterindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib, PDF formatında əlavə edilməlidir);
- nizamnamə (təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd PDF formatında əlavə edilməlidir);
- rekvizitlər (təqdim olunması məcburidir. Müvafiq sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (təqdim olunması məcburidir. Son dəfə aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq olunmuş sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (təqdim olunması məcburidir. Əgər bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 2023-cü il iyunun 1-dən sonra alınmış arayış PDF formatında əlavə edilməlidir);
- iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (təqdim olunması məcburidir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il iyunun 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il iyunun 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir);
- iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna aid məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (əlavə 1) (təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;
- iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi kimi sayılaraq təqdim olunmalıdır);
- iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırmasını, markalanmasını və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 90 (doxsan) təqvim günü ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 2 avqust 2023-cü il saat 16.00-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 10 avqust 2023-cü il saat 16.00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 11 avqust 2023-cü il saat 16.00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Caz festivalı sona çatdı

**İyulun 7-də Heydər Əliyev Mərkəzinin Parkında keçirilən V Beynəlxalq Bakı Yay Caz Günlərinin yekun konserti oldu. Oleq Lundstrem adına Caz Orkestrinin iştirak etdiyi tədbir sakinlər və şəhərin qonaqları tərəfindən rəğbətlə qarşılandı.**



İlk dəfə 2019-cu ildə Bakıya gələn kollektiv o vaxtdan auditoriyamızın sevgisini qazanıb. Oleq Lundstrem adına Caz Orkestri unikal tarixə malik olan kollektivdir. 1934-cü ildə 18 yaşlı gənc cazmen Oleq Lundstremin yaratdığı və bir ildən sonra 90 illiyi qeyd ediləcək orkestr hazırda dünyada fəaliyyət göstərən ən qocaman caz orkestridir. Həmin fakt Ginnesin Rekordlar Kitabında da qeyd edilib.

Çinin Xarbin şəhərində yaradılan bu orkestr müxtəlif ölkələrdə on mindən çox konsert proqramı ilə çıxış edib. Yüz minlərlə tamaşaçı həmin konsertlərdə olub, milyonlarla insan kollektivin ifasını radio və televiziya vasitəsilə dinləyib.

1936-cı ildə qrup üzvləri müəyyən səbəblərdən Şanxay şəhərinə köçür. "Yaşıl timsah" adı ilə burada da böyük uğurlara imza atan orkestr konsert proqramları təşkil edir və tamaşaçıların sevgisini qazanır. 1947-ci ildə orkestr üzvləri Tatarıstanın Kazan şəhərinə köçür. Burada fəaliyyət göstərən musiqiçilər konservatoriyaların birində ali musiqi təhsili alırlar. Bundan sonra, orkestrin şöhrəti bütün Avropaya və dünyaya yayılır.

Bakıda keçirilən V Yay Caz Günləri Festivalında da qrup maraqlı musiqi nömrələri ilə cazsevərlərin qarşısında çıxış etdi. Şəhər sakinləri də bu möhtəşəm musiqi kompozisiyalarından zövq almaq üçün bura toplaşmışdılar. Festival sevincini bizimlə bölüşən Elmar Hüseynov bura ailəsi ilə bərabər gəldiyini dedi: "Dogma Bakımızda təşkil olunan bu möhtəşəm tədbirə ailəmlə birlikdə gəlmişəm. Övladlarım xaricdə təhsil alır. Tələbə yoldaşlarına tədbir barədə məlumat verirlər. Onlar da cavabında burda olmağı çox istədiklərini bildirirlər. Ailəvi olaraq caz musiqisini çox sevirik. İstəyirik ki, belə tədbirlər çox olsun".

Qeyd edək ki, iyulun 3-dən başlayan festival Premier LTD agentliyinin təşəbbüsü və təşkilatçılığı, Heydər Əliyev Mərkəzinin dəstəyi ilə keçirilib.

***Fidan SALMANOVA,***
***Elşən AĞALAROV (foto),***
***"Xalq qəzeti"***

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 141 (30257) 9 iyul 2023-cü il, bazar

veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Finlandiyada atletika üzrə 2 medal



**Finlandiyanın Tampere şəhərində keçirilən Veteranların Avropa Oyunlarında təmsilçimiz Sadıq Sadıqov 65 yaş kişilər kateqoriyasında 400 və 1500 metr məsafələr üzrə uğurla çıxış edib.**

İdmançımız 400 məsafə üzrə yarışda ikinci olub. O, 1500 metr məsafəyə qaçışda isə bütün rəqiblərini qabaqlayaraq, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Gənc taekvondoçularımız 4 medal qazanıblar

**Gənc taekvondoçularımız Ankarada G-2 kateqoriyalı yarışda 4 medal qazanıblar.**



Baş məşqçi Məmməd Abdullayev və böyük məşqçi Zahid Məmmədovun rəhbərliyi altında çıxış edən yığma aktivinə 1 qızıl, 1 gümüş və 2 bürünc medal yazdırıb. Taekvondoçularımızdan Zemfira Həsənzadə (44 kq) bütün rəqiblərinə qalib gələrək qardaş ölkədə Azərbaycan himnini səsləndirib. Yalnız finalda məğlub olan Hüseyn Xudiyev (73 kq) gümüş medala yiyələnib. Vasif Səlimov (59 kq) və Səlimə Quliyeva (42 kq) isə yarışı üçüncü yerdə başa vurublar.

## Güləşçimizin Avropa çempionatında tarixi nəticəsi



**Yeniyetmə güləşçimiz Esra Məmmədli (46 kq) Macarıstanın Kaposvar şəhərində keçirilən U-15 Avropa çempionatında tarixi nəticə göstərib.**

Finala qədər rəqib tanımayan güləşçimiz həlledici mərhələdə yerli idmançı Mariya Jitovoza 0:7 hesabı ilə uduzub. Avropa çempionatının gümüş medalını qazanan idmançımız qadın güləşi üzrə U-15 Avropa çempionatları tarixində medal qazanan ilk Azərbaycan güləşçisi olub.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

**İyunun sonu – iyulun əvvəli ilanların cütləşmə vaxtıdır. Cütləşmə mövsümündə dişi ilan 4-7 erkəklə görüşür və sonra 5 il mayalanmış yumurta qoyur. Bu dövrdə onlara toxunmasanız ilanlar aqressiv deyil.**

## İlana toxunmasan sancmaz

### *Bəs dişləsə neyləməli?*

Ümumiyyətlə, gürzələr insanlara hücum etməməyə çalışır, əgər yavaş-yavaş yeriyən insanı görsələr və ya eşitsələr sürünməyə üstünlük verir. Amma düz və çox sürətlə onlara doğru getsəniz, bunu təcavüz hesab edib hücum edə bilər.

İkinci təhlükəli dövr gürzələrin qışlamadan əvvəl toplaşmağa başladıqları payızın son aylarıdır. Onlar yatdıqları yerləri müdafiə edir və aqressivləşirlər.



Bəs ilan sancanda nə etməliyik? Azərbaycanda zəhərli ilanlardan ən çox yayılanı gürzədir. Əgər dişləmə yerində şişlik və iki qırmızı nöqtə olduğunu görsək, çox güman ki, gürzə sancıb. Bu zaman nə etmək lazımdır?

1. Zəhəri sormayın: Belə ki, kömək edən şəxs zəhərin bir hissəsini uda bilər və ümumiyyətlə, zəhər selikli qişalardan asanlıqla sorulur. Beləliklə, iki nəfər zəhərlənmiş olacaq.

2. Dişləmə yerini turniketlə bağlamayın: Gürzənin zəhəri konsentrasiya edildikdə, toxumaları güclü şəkildə məhv edir, buna görə də bədəndən keçməsinə icazə vermək daha düzgün olardı – o zaman zəhərin konsentrasiyası azalacaq, təsiri daha zəif olacaq.

Yəni, dişləmə yerindən yuxarı bir turniket təkcə qan durğunluğuna və toxuma şişməsinə deyil, həm də qanqrenə səbəb ola bilər və yalnız ölüm riskini artırar.

3. İlanın dişlədiyi yeri yandırmayın! İsti qan nüfuz edən zəhərin təsirini azaltmaq iqtidarında deyil, eyni zamanda, dişləməyə yanıq da əlavə edilə bilər.

## Andromeda qalaktikasında yeni qəribə ulduzlar

***Harvard-Smitson Mərkəzinin və Şimali Arizona Universitetinin astronomları Andromeda qalaktikasında yerləşən və Volf-Rayet tipinə aid olan 19 qeyri-adi ulduz aşkar ediblər.***

Volf-Rayet (WR) ulduzları qeyri-adi spektrə malik, nadir heterogen qrupudur. Belə ulduzların spektrində əsasən ionlaşmış helium, azot və ya karbonun geniş emissiya xətləri nəzərə çarpır. Bu ulduzlar digərlərindən daha istidir və çox parlaqdır. İndiyədək bir neçə yüz belə ulduz aşkar edilmişdir ki, onların əksəriyyəti Süd Yolundadır.

Yeni kəşf edilmiş WR-lər daha qırmızı olduqlarına görə, Andromeda Qalaktikasındakı belə ulduzların məlum nümunələrindən daha zəif olublar.

Qeyd edilib ki, yeni kəşf edilmiş WR ulduzlarının böyük əksəriyyəti qeyri-kafi müşahidə həssaslığı səbəbindən ümumi qalaktika tədqiqatında aşkar edilməmişdi. Astronomlar əlavə ediblər ki, azot xətlərinin orta böyüklüyü əvvəllər məlum olanlarla müqayisədə 21-dir (əvvəlkilərdə bu göstərici 19,2 idi). Ulduzun ölçüsü nə qədər aşağıdırsa, o daha parlaqdır.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

Mədəniyyət xəbərləri




## Şəkidə "İpək yolu" başa çatdı

**Artıq başa çatmış Şəki "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalının sonuncu günündə tamaşaçılara Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin konserti təqdim olunub.**

Orkestrin bədii rəhbəri və dirijoru Əməkdar artist, polkovnik-leytenant Səməd Vəkilovdur. "Marxal" kompleksinin Yay Teatrında keçirilən konsert görkəmli bəstəkar Firəngiz Əlizadənin "Zəfər Marşı" əsəri ilə başlayıb. Solistlər – Əməkdar artist Tural Ağasiyev, Fatimə Cəfərzadə və Fəxri Kazım-Nicatın ifasında Üzeyir Hacıbəyli, Ramiz Mirişli, Fikrət Əmirov və digər Azərbaycan və xarici ölkə bəstəkarlarının mahnıları alqışlarla qarşılanıb.

***

## Azərbaycanlı prodüser beynəlxalq münsifdir

**Rusiyanın İvanovo şəhərində keçirilən Andrey Tarkovski adına "Zerkalo" XVII Beynəlxalq Film Festivalı başa çatıb.**




Qeyd edək ki, festivalın beynəlxalq münsiflər heyətində azərbaycanlı prodüser, rejissor Fariz Əhmədov da təmsil olunub.

Bir həftə davam edən festivalda 12 ölkədən 8 film iştirak edib. Münsiflər heyətinin Qran-pri mükafatı hindistanlı rejissor Caişankar Aryarın çəkdiyi "Şivamma" filminə verilib. "Ən yaxşı rejissor" mükafatına ABŞ ekran əsəri "Fremont"a görə iranlı rejissor Babək Cəlali layiq görülüb. Münsiflər heyətinin xüsusi mükafatı Levan Koquaşvilinin gürcü filmi "Brayton 4"ə verilib.

***

## "Xeyirxahlıq mücəssəməsi"



**Masallı rayonunda tanınmış xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin anadan olmasının 200 illik yubileyinə həsr olunan "Xeyirxahlıq mücəssəməsi" adlı tədbir keçirilib.**

Rayon Mərkəzi kitabxanasının əməkdaşları Ağahüseyn Hüseyni və Bilqeyis Məmmədova xeyirxahlıq əməlləri ilə böyük iftixar sahibi olan Hacı Zeynalabdin Tağıyevin cəmiyyətdə tutduğu mövqeyindən, ölkənin ictimai-iqtisadi və mədəni-maarif sahəsində misilsiz xidmətlərindən bəhs ediblər. H.Z.Tağıyevin müdrikliyi, heyranedici səxavəti, xalqının gələcəyinə qayğısı ilə nəsillərin yaddaşında silinməz iz qoyduğu məruzə ilə diqqətə çatdırılıb.

*Ə.DOSTƏLİ, "Xalq qəzeti"*

Sağlamlıq

## Beyin pəhrizdən əziyyət çəkir

**Beyinin sağlam qalması üçün düzgün qidalanmaq vacibdir. Duzla zəngin qidalar hipertoniyanın inkişafına kömək edir və beyin xəstəlikləri riskini artırır. Nevroloqların fikrincə, hipertoniya zamanı beyində yalnız damarların keçiriciliyi yox, həm də sayı azalır, qan dövranı pozulur.**



Qidada heyvani yağların çox olması aterosklerozun inkişafına kömək edir, bu zaman damarlarda xolesterin toplanır və beyinə qan axınını pozur. Yağların məhdudlaşdırılması da beyinə mənfi təsir göstərir. Ət, qaraciyər, heyvan yağı, kərə yağı, yumurta sarısında neyronların fəaliyyəti üçün lazımi maddələr var.

Orqanizm yağ alan zaman qanda xolesterinin səviyyəsinə nəzarət edilməlidir. Beyin ciddi pəhrizə dözmür, o enerjiyə ehtiyac duyan orqandır. İstənilən pəhriz zərərlidir, çünki vitaminlər, mikroelementlər çatışmazlığı riski var. Yeməklər arasında uzun fasilələr də bəzən beyinə mənfi təsir göstərir.

## Oynaq ağrılarına qədim Altay resepti



**Oynaq ağrıları üçün olan bu resept qədim Altay xalqlarının təbabətində əvəzolunmaz hesab edilir. Bu reseptlə məlhəm necə hazırlanır?**

6 çay qaşığı iri dənəvər duz və 6 çay qaşığı hər hansı təmizlənməmiş bitki yağı şüşə qabda qarışdırılır. Bir gün qaranlıq yerdə saxlanılır. Ertəsi gün ağrıyan nahiyəyə çəkib masaj edilir.

Xəstələrin vəziyyətini yaxşılaşdırmaq üçün bəzi həkimlər natrium xloridin istifadəsini tövsiyə edir. Bu da dəniz duzundan başqa bir şey deyil. Artrit, artroz, sümük bazasında hər hansı bir metabolik dəyişiklik üçün dərman müalicəsi ilə yanaşı, kompreslər, duz məhlulları ilə sarğı istifadə olunur.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

## Yeni dəniz yaranacaq

**Alimlər xəbərdarlıq edirlər ki, Afrikadan keçən nəhəng çatlar qitəni ikiyə bölərək yeni dəniz yaradacaq.**



Bu hadisə cənub-şərq sahilləri boyunca Efiopiyadan Mozambikə qədər yeni dənizin yaranmasına səbəb olacaq.

Şərqi Afrika Rifti kimi tanınan və 22 milyon ildən artıqdır ki, mövcud olan bu çatlar son onilliklərdə aktiv olub.

Qeyd edək ki, 2005-ci ildə Efiopiya yaxınlığında, 2018-ci ildə isə Keniyada güclü leysan yağışlarından sonra 35 mil uzunluğunda çat meydana gəlmişdi.

Elm adamları, həmçinin iki tektonik plitənin - şərqdə Somali və qərbdə Nubiyanın bir-birindən uzaqlaşdığını proqnozlaşdırırlar.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

## Yağlı balıq

**Aterosklerozun qarşısının alınmasının vacib komponenti kifayət qədər balıq qəbuludur. Balıq yağında olan maddələr qan damarları və ürək üçün faydalıdır.**



Balıq həftədə bir və ya iki dəfə yeyilməlidir. Təəssüf ki, elmi araşdırmalar göstərir ki, insanlar balıqlara qarşı kifayət qədər soyuq münasibət göstərirlər. Əsas məsələ qiymətlə bağlı deyil.

Məsələn, siyənək yağlı və faydalı balıqdır, istənilən pul kisəsinə malik müştərilər üçün əlçatandır. Skumbriya da. Demək olar ki, hər bir balıq, xüsusən də dəniz balığı ürək və qan damarları üçün, həqiqətən, faydalıdır.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyulun 9-da Bakıda və Abşeron yarımadasında günəşli olacaq. Şimal-şərq küləyi əsəcək. Gecə 22-27°, gündüz 35-39° isti, bəzi yerlərdə 41° olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq.Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin bəzi şimal və qərb rayonlarında fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26° , gündüz 35-40° , bəzi yerlərdə 42° , dağlarda gecə 13-18°, gündüz 23-28° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

✓ "Çaysel" MMC-yə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır. VÖEN– 1400662211.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4098
SİFARİŞ 1667
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00